# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 46 (3284) Şənbə / 16-18 may 2020-ci il Qiymәti 40 qəpik




## Xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlər yumşaldılır

**Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qisminin yumşaldılmasına qərar verilib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, mövcud sanitar-epidemioloji vəziyyət, aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, 18 may 2020-ci il saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə:

- yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;
- bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürülür;
- restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);

Qeyd edək ki, restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında xidmətlər pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Bu qaydalara riayət edilməsi ictimai iaşə obyektlərinin rəhbər şəxsləri və əməkdaşlarının, eyni zamanda xidmətlərdən istifadə edən müştərilərin birbaşa öhdəliyidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

Eyni zamanda 18 may 2020-ci il saat 00:00-dan bütün ölkə üzrə:

- muzey və sərgi zallarının fəaliyyəti bərpa olunur;
- 65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürülür. Bununla belə, 65 yaşdan yuxarı şəxslər COVID-19 virusuna yoluxmada risk qrupuna daxil olduğundan evdən zəruri hallarda çıxmaq tövsiyə edilir. Eyni zamanda insanların sıx toplaşdığı məkanlarda olmamaq, sosial məsafənin gözlənilməsi, qoruyucu vasitələrdən istifadə zəruridir.

Hazırda xüsusi karantin rejimi müddətində ölkə üzrə aşağıdakı məhdudiyyətlər qüvvədə qalır:

- yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışın dayandırılması;
- xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron rayonuna, eləcə də Gəncə və Lənkəran şəhərlərinə giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması;
- bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması;
- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması;
- ASAN Xidmət və "DOST" xidmət mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;
- dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;
- toy məclislərinin təşkilinin qadağan olunması;
- bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərin keçirilməsinin dayandırılması;
- tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;
- ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;
- əyləncə məkanları, o cümlədən uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;
- muzey və sərgi zalları istisna olmaqla, digər mədəniyyət obyektləri, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;
- nəzdindəki ərzaq mağazaları və apteklər istisna olmaqla, ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyətinin dayandırılması;
- ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;
- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə saat 18:00-dan 08:00-dək yerində xidmətin dayandırılması;
- tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;
- idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);
- massaj və hamam xidmətlərinin göstərilməsi;

Fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Bir daha vurğulayırıq ki, COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir. Bu baxımdan COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, evdən yalnız ciddi ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir.

## Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür



***Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib. Hafta.az xəbər verir ki, Azərbaycan Prezidentini salamlayan CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer dedi:***

- Sabahınız xeyir, cənab Prezident.

Prezident İlham Əliyev: Sizi görməkdən çox şadam, sabahınız xeyir. Amma sizin üçün axşamınız xeyir olsun. Sizdə indi axşamdır.

Kelli Kramer: Bəli. Sizi görməkdən olduqca məmnunam. Sizi sonuncu dəfə Davosda görmüşdüm. Amma üstündən, görünür, son hadisələrdən sonra çox vaxt keçir.

Prezident İlham Əliyev: Bəli, sizi yenidən görməyimə çox şadam və çox yaxşıdır ki, bizim bir-birimizlə danışmaq və Davosda keçirdiyimiz görüşdən sonra görülmüş işləri nəzərdən keçirmək, eləcə də növbəti addımları planlaşdırmaq üçün bu fürsətimiz var.

### Müzakirə

Kelli Kramer: Elədir ki, var. Hesab edirəm ki, bir çox maraqlı hadisələr baş verməkdədir. Mən, sadəcə, bizimlə görüşdüyünüzə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. İcazənizlə, başqa bir məsələni də deyərdim. Əslində, yaxşı və xoş təəssürat bağışlayan haldır ki, COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik səylərinizi nümayiş etdirdiniz. Çox böyük təəssürat bağışladı. Bir daha bu işlərə rəhbərlik etdiyinizə görə Sizə minnətdarıq. Onu da söyləməliyəm ki, CISCO-nun teleiştirak texnologiyasından istifadəni görmək də çox yaxşı hal oldu. Bir sözlə, əgər bununla Sizə kömək edə bildiksə, bu, çox xoşdur. Sizi görmək fürsətini də dəyərləndiririk. Buna görə minnətdarıq.

Prezident İlham Əliyev: Sağ olun.

Sonra CISCO şirkətinin vitse-prezidenti Qay Ditrix çıxış edərək dedi:

- Sizi görməyimə çox məmnunam. Bu gün bizə vaxt ayırdığınıza görə olduqca minnətdaram. Mən üç sahəni əhatə edəcəyəm. Müzakirə etmək istədiyimiz üç sahə belədir: "Smart ölkə", təhsil və kibertəhlükəsizlik. Onların hamısı Sizin əsas prioritetlərinizlə bağlıdır. Siz onları təxminən iki il əvvəl bizim qarşımızda təsvir etdiniz. Biz ildə iki dəfə Bakıda, yaxud Davosda keçirdiyimiz görüşlərdə Sizə yenilikləri çatdırırdıq.

ardı səh. 2



## Koronavirusun ikinci dalğası - Azərbaycan üçün təhlükəli ola bilərmi?

**Dünyada COVID-19 xəstəliyinə yoluxanların sayı 4 milyon 200 mini, bu virusdan ölənlərin sayı isə 294 mini ötüb.**

Ümumdünya Səhiyyə Təşkilatından bildirilib ki, son sutka ərzində 77 965 nəfərdə koronavirus aşkarlanıb, 6 647 nəfər vəfat edib. Beləliklə, COVID-19-a yoluxanların ümumi sayı 4 248 389-a, ölüm hallarının sayı isə 294 046-ya yüksəlib. Daha çox yoluxma halı Şimali və Cənubi Amerikada qeydə alınıb - 1 819 553. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionu üzrə direktoru Hans Klyuqe "The Daily Telegraph" qəzetinə müsahibəsində bildirib ki, Avropa ölkələri koronavirus pandemiyasının ikinci dalğasına hazır olmalıdır. Bu səbəbdən səhiyyə sisteminin gücləndirilməsinə, tibb müəssisələrinin ilkin tibbi-sanitar yardım və reanimasiya şöbələrinin imkanlarının artırılmasına xüsusi diqqət yetirilməlidir. Onun sözlərinə görə, ikinci dalğa payızda başlaya bilər: "Payızda koronavirusun ikinci dalğası ilə qarşılaşa bilərik. Bu dalğa fonunda qrip və qızılca xəstəlikləri də yayıla bilər. Buna görə də məhdudlaşdırıcı tədbirləri yumşaldan ölkələr bayram etmək əvəzinə, hazırlıq görməlidir".

Xatırladaq ki, ilk dəfə koronavirus Çinin Uhan şəhərində qeydə alınmışdı. Buna baxmayaraq Çində koronavirusa yoluxmaların sayı hazırda dünyada ən axrıncı yerdədir. Belə ki, Çində son sutka ərzində daha 4 nəfərdə koronavirus aşkarlanıb, ölən olmayıb. Bu barədə ölkənin Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsi məlumat yayıb.

ardı səh. 6

## Qətl

■ **Mayın 14-də saat 19 radələrində 2002-ci il təvəllüdlü Zaqatala rayonunun Mosul kənd sakini İlyas İlyasovun bıçaqlanaraq öldürülməsi barədə daxil olan məlumat əsasında polis və prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə dərhal hadisə yerinə və meyitə baxış keçirilib.** Zaqatala Rayon Prokurorluğunun hafta.az-a daxil olan məlumatında bildirilir ki, faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. Həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin 2003-cü il təvəllüdlü rayon sakini Əliməmməd Əliməmmədov tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı törədilməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Ə.Əliməmmədov müdafiəçinin iştirakı ilə dindirilərkən törətdiyi cinayəti etiraf edib və peşman olduğunu bildirib. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Həbs

■ **Bakıda mənzillərdən oğurluq edən dəstə yaxalanıb. Hadisə paytaxtın Nəsimi rayonu ərazisində baş verib.** Bakı şəhər sakini Anar İmanov Nəsimi rayon Polis İdarəsinə müraciət edərək bildirib ki, mayın 13-də axşam saatlarında evinə gələrkən naməlum şəxslərin onun mənzilinə daxil olmağa cəhd etdiyini görüb. Həmin şəxslər onu görüb hadisə yerindən qaçıblar. Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər Cinayət Məcəlləsinin 177-ci (oğurluq) və 178-ci (dələduzluq) maddələri ilə məhkum olunan, 2004-cü il təvəllüdlü İlkin Salayev, Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsilə əvvəllər məhkum olunmuş, Qazax rayon sakini, 2005-ci il təvəllüdlü Xəyal Vəliyev və onun qardaşı 2002-ci il təvəllüdlü Oruc Vəliyev saxlanılıblar. Aparılan araşdırmalar zamanı məlum olub ki, həmin şəxslər mayın 12-də Nəsimi rayonu Cavadxan küçəsində H.Almirzəyevin evindən pul, bank kartı və 450 manat dəyərində mobil telefon oğurlayıblar. Faktla bağlı araşdırmalar davam edir.

## Qəza

■ **Bakıda piyadanın ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Suraxanı rayonu, Hövsan qəsəbəsində şəhər sakini, 1994-cü il təvəllüdlü Şəmistan Qasımov idarə etdiyi "Vaz 21014" markalı avtomobillə 50-55 yaşlarında kişini vurub. Piyada aldığı xəsarətdən hadisə yerində keçinib. Faktla bağlı Cinayət Məcəlləsinin 263.2-ci (yol istismar qaydalarını pozma, zərərçəkənin ölümünə səbəb olma) maddəsi ilə cinayət işi başlanıb.

## Günün fotosu...



Dünya tərsinə dönüb...

"HƏFTƏ İÇİ"ndən



### "Səkkizinci kilometr" bazarında satıcılar karantin rejiminə əməl etmirlər

Biz satıcılardan, ancaq yerhaqqını tələb edə bilərik. Onları məcbur edib deyə bilmərik ki, niyə maska taxmırsınız?

bax səh. 7



### İqlim dəyişikliyi ilə mübarizə niyə ciddi nəticə vermir?

Ekspertlər hesab edirlər ki, iqlimin stabil saxlanılması planetin hər bir sakinindən asılıdır

bax səh. 6

## Sərəncam



**General-leytenant Əfqan Vəli oğlu Nağıyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin beynəlxalq əlaqələr üzrə müavini vəzifəsindən azad edilib.** Prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb.

## ABŞ Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir



**Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə təbrik məktubu ünvanlayıb.**

Prezident Donald Tramp məktubunda 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidentinə və xalqına Amerika xalqı adından səmimi salamlarını və təbriklərini çatdırır. Məktubda deyilir: "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəslərdiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik.

Xahiş edirəm 28 May - Respublika Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz".

■ **"ABŞ-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə yüksək tərəfdaşlıq münasibətləri səviyyəsindədir". Bu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu deyib.** O bildirib ki, Azərbaycanın həyata keçirdiyi qlobal layihələr istər Avropanın, istərsə də Şimali Atlantika ölkələrinin qarşılıqlı mənafeləri və təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir: "Bütün bunlarla bərabər, ABŞ və Azərbaycan beynəlxalq münasibətlər sistemində bir sıra strateji istiqamətlər, o cümlədən hərbi-siyasi istiqamətlər üzrə geniş tərəfdaşlıq imkanlarına sahibdir. NATO yüklərinin Əfqanıstana daşınmasında, dünyada sülhün bərqərar olunmasında, təşkil olunmuş sülhməramlı missiyanın yerinə yetirilməsində ABŞ

Azərbaycanla tərəfdaşlıq edir. ABŞ həm də dünya siyasətini müəyyən edən güc mərkəzlərindən biri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun həmsədrlərindəndir. Bütün bunlar ABŞ-Azərbaycan münasibətlərinin qarşılıqlı maraqlar kontekstində olduqca mühüm strateji əhəmiyyətə malik olmasını şərtləndirir". Millət vəkili qeyd edib ki, bu günlərdə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubda da məhz mühüm strateji istiqamətlərə toxunulması, dövlətimizin ərazi bütövlüyü ilə bağlı məsələləri önə çəkməsi və onu dəstəkləmə bildirməsi həm iki ölkə arasında olan münasibətlərin göstəricisi, həm də Azərbaycanın beynəlxalq münasibətlərin müstəqil aktoru olaraq bu münasibətlər sistemində nüfuzu kimi qiymətləndirilməlidir: "Şübhəsiz ki, bu məktub həm də bundan sonrakı mərhələdə yeni dünya nizamı yaranması prosesində ABŞ və Azərbaycanın qarşılıqlı münasibətləri ilə bağlı əsas istiqamətləri müəyyən edən fikirlərdir. Belə proqnozlaşdırmaq olar ki, bundan sonrakı mərhələdə də ABŞ-Azərbaycan münasibətləri bütün sahələr üzrə inkişaf dinamikasına malik olacaq".

## DGK dörd ayda 184 cinayət xarakterli fakt aşkarlayıb



**Yanvar-aprel aylarında Dövlət Gömrük Komitəsi tərəfindən 184 cinayət xarakterli fakt aşkarlanıb.**

Komitədən hafta.az-a-a bildirilib ki, bunlardan 60-ı narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar, 93-ü isə qaçaqmalçılıq və digər cinayət xarakterli faktlardır.

Apreldə vətəndaşlar tərəfindən Dövlət Gömrük Komitəsinə 197 min 546 elektron müraciət ünvanlanıb. Komitədən bildirilib ki, daxil olan müraciətlər arasında fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron sadələşdirilmiş bəyannamənin qəbulu, gömrük əməliyyatları və ya gömrük prosedurları ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi çoxluq təşkil edib.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303).
"Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur. Qəzet həftənin 5 günü çıxır.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür

◂ əvvəli 1-ci səhifədə



"Ağıllı şəhər" layihəmiz yəqin ki, xatirinizə gəlir. Biz, əslində, "Ağıllı avtovağzal" ilə başladıq və şəhərdə həmin sahəyə aid bütün müxtəlif cəhətləri əlavə etdik. Özü də bu addımı hərtərəfli sınaq formatında atdıq. Nəticə inanılmaz dərəcədə uğurlu oldu. Çoxsaylı müsbət rəylər daxil oldu. Çox yaxşı məlumatlar toplanıldı.

Qay Ditrix ölkəmizdə icra olunan birgə layihələrdən danışdı, bu layihələrin çox gözəl nəticələr verdiyini bildirdi. CISCO şirkətinin vitse-prezidenti Azərbaycanın müvafiq strukturları ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi və bu əməkdaşlığın təcrübə qazanmaq baxımından əhəmiyyətini vurğuladı. O, təmsil etdiyi şirkətlə "Quantelo" şitkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə də danışdı, vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işləri qeyd etdi və bunun ümumi daxili məhsulun artımı, iş yerlərinin yaradılması və innovasiyaların tətbiq edilməsi işinə xidmət edəcəyini bildirdi. Qay Ditrix "Ağıllı məktəblər" layihəsinə toxunaraq dedi:

-Cənab Prezident, ümumi məqsədimiz bir-biri ilə bağlantısı olan "Ağıllı məktəblər" və təhsil proqramlarını yaratmaqdır ki, bu sahədə qlobal liderlik qazanılsın. Sizin qeyd etdiyiniz miqyas və öhdəlik tam uyğundur. Biz bunun öhdəsindən gələ və təhsilin səviyyəsini qaldıra bilərik. Həmin bir-biri ilə bağlantısı olan məktəblər vasitəsilə Sizin dünyadakı statusunuz qalxacaq.

Prezident İlham Əliyev: Çox sağ olun. Siz haqlı olaraq qeyd etdiyiniz kimi, biz iki mühüm tədbirin təşkilində Sizin əla avadanlığınızı istifadə etdik. Texniki nöqteyi-nəzərdən deyə bilərəm ki, hər iki tədbir çox gözəl baş tutdu, çünki bu iş asan deyildi. Əgər türkdilli dövlətlərin Sammiti cəmi bir neçə dövləti əhatə edirdisə, ikinci tədbirə gəldikdə, iştirakçılar qırxdan artıq idi. Orada, həmçinin beynəlxalq təşkilatlar var idi. Yeri gəlmişkən, ilk dəfə idi ki, Qoşulmama Hərəkatı və Avropa İttifaqı eyni tədbirdə iştirak edirdi. Əvvəllər, bu, heç zaman baş verməmişdir. Azərbaycan həmin iki mühüm beynəlxalq tədbiri başladı. Təbii ki, onların hər ikisi koronavirusla və beynəlxalq səviyyədə onunla mübarizə ilə əlaqəli idi. Sizə deyə bilərəm ki, texniki dəstək əla idi. Mən bu fürsətə görə minnətdaram. Hazırda bu imkanlardan sizinlə söhbət etmək üçün istifadə edirik. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, mənim sizin əla sisteminiz vasitəsilə həmkarlarımızla, yəni, dövlət başçıları ilə artıq bir neçə söhbətim olub. Lakin bu, ilk dəfədir ki, mən şirkətin rəhbərləri ilə bu cür söhbət edirəm. Fikrimcə, xoş təsadüfdür ki, bu, CISCO-dur.

Bu, ölkələrimiz arasında çox sıx və deyərdim ki, strateji tərəfdaşlığı nümayiş etdirir. İlk bu cür söhbət apardığım şirkət Birləşmiş Ştatları təmsil edən şirkətdir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, dünən mən Prezident Trampdan məktub almışam. O, məni və Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə təbrik edib. Öz məktubunda Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Həmin məktubda, o, xüsusi olaraq qeyd edir ki, iki böyük dövlətimiz gələcəkdə daha çox işlər görəcək. Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür.

Qeyd etdiyiniz məsələlərə gəldikdə, biz onları əvvəllər müzakirə etmişik. Şadam ki, Davosda keçirdiyimiz görüşdən sonra böyük irəliləyişə nail olmuşuq. Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi "Ağıllı şəhər" layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni "Smart ölkə" ideyası ilə çıxış edirsiniz. Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən qlobal "Smart ölkə" konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir. Mən buna sonradan qayıdacağam. Lakin ilk olaraq mənə sizin "Quantela" şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə ki, biz bunu tam dəstəkləyirik. "Smart ölkə" layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ "yol xəritəsi"nin hazırlanması da fikrimcə, çox faydalı olardı.

Bundan sonra, qarşımızda tam mənzərə aydınlaşacaq. Atacağımız addımların planı hazır olacaq və yekun nəticə çıxacaq və bu nəticəyə nail olmaq üçün hansı növ ehtiyatların toplanmasına ehtiyac duyulduğunu da biləcəyik. Hazırkı vəziyyətdə "bir-biri ilə bağlantısı olan məktəblər" və təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir, çünki sizə məlumat vermək istəyirəm ki, məktəblərimiz və universitetlərimiz koronavirusa görə martın əvvəlindən bağlanıb və tədris ilinin sonuna qədər onlar, birmənalı olaraq, açılmayacaq. Koronavirusla bağlı işlərin gedişini, onun necə olacağını hələ görməliyik.

Bu günə qədər vəziyyət nəzarət altındadır. Çox az sayda ölənlər var və ciddi məhdudlaşdırıcı tədbirlər sayəsində yoluxmuş insanların sayı da nisbətən aşağıdır. Lakin hazırda biz dünyanın demək olar ki, bütün ölkələri kimi artıq açılış prosesindəyik. Buna görə məsafədən təhsil imkanları həqiqətən çox vacibdir. Əgər bizdə bütün məktəblərimizin tam bağlantısı olan sistem olarsa onda bu, çox böyük imkana çevriləcək. Siz dediyiniz kimi, bu halda Azərbaycan aparıcı ölkələrdən biri olacaq.

Kibertəhlükəsizliklə bağlı məsələyə gəldikdə, biz bunu, həmçinin əvvəllər müzakirə etmişik. Əvvəlcə müzakirə etdiyimiz kimi və mən də qeyd etdiyim kimi, həmin yeni islahatlar gündəliyində əsas məqsəd ümumi daxili məhsulu artırmaq, iş yerlərini açmaq və bunun üçün innovativ texnologiyalardan istifadə etməkdən ibarətdir.

Hazırkı koronavirus şəraitində, əvvəlcə qeyd etdiyim kimi, bu məsələlər daha da vacibdir. Çünki demək olar ki, bütün ölkələrin ümumi daxili məhsulu zərbə altındadır. Bununla belə, bu ilin dörd ayında bizdə ümumi daxili məhsulun artımı 0.2 faiz səviyyəsində olub. Lakin anlayırıq ki, növbəti ay çox güman bu göstərici də aşağı düşəcək. Sənaye sektorunda vəziyyət daha yaxşıdır. Bizim qeyri-enerji sənayesində 13 faizdən artıq artım olub. Lakin, əlbəttə, koronavirus ümumi daxili məhsula və iş yerlərinə zərbə vurur, çünki biz, təbii ki, işsizliyin artmasını hesablayacağıq. Amma onun qarşısını almaq üçün 2 milyard avro həcmində çox ciddi iqtisadi və sosial paketi işə salmışıq. İqtisadiyyatın hazırda tam bağlandığı sahələrdə işlərini itirmiş insanları qorumaq üçün bunu edirik. Məsələn, turizm. O, indi sıfır səviyyəsindədir. Bir sözlə, bu məsələlər hazırda daha çox əhəmiyyət kəsb edir. Hesab edirəm ki, biz diqqətimizi onun üzərinə yönəldəcəyik. İndicə danışdığımız məsələlərdən başqa, fikrimcə, biz digər sahələrdə də işləyə bilərik. Bilirəm ki, siz kənd təsərrüfatının rəqəmsallaşdırılması ilə bağlı artıq təmasdasınız. Bu sektor hazırkı vəziyyətdə neft qiymətlərinin tənəzzülü ilə aparıcı sektorlardan biri olacaq. Buna görə kənd təsərrüfatı məşğulluq, ərzaq təhlükəsizliyi və ixrac deməkdir. Gözəçarpan nəticələrə nail olmaq üçün bizim su ehtiyatlarımıza çox ciddi elektron nəzarət sistemimiz olmalıdır. Elə bu yaxınlarda mən Baş Nazirin müavininin rəhbərliyi altında xüsusi dövlət komissiyasının yaradılması ilə bağlı Sərəncam imzalamışam. Onlar artıq işə başlayıblar. Bir çox nazirlər həmin komissiyanın üzvləridir, çünki bizim çoxlu itkilərimiz olub. Ötən il isə bizdə çox ciddi quraqlıq oldu. Bu il, həmçinin gözlənilir. Düzdür, daha yüngül olsa da, amma yenə də proqnozlaşdırılmayan haldır. Hava şəraiti gözlənilməz şəkildə dəyişir.

Beləliklə, su ehtiyatlarımızın düzgün qiymətləndirilməsi, layihənin prioritetlərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının və balansın elektron idarə edilməsi qarşıdan gələn illərdə bizim üçün ən vacib məsələdir.

Azərbaycanda infrastruktur layihələrinin əksəriyyətinin artıq tamamlandığını nəzərə alsaq, bu, infrastruktur layihələri sırasında bir nömrəli layihə olacaqdır ki, onun icrası nəticəsində su ehtiyatlarına nəzarət, idarəedilmə və bərabər bölgü təmin olunacaq. Çünki burada naraхatlıq doğuran məsələlərdən biri odur ki, bəzən su ehtiyatlarının paylanılması zamanı yerli icra orqanları bunu qeyri-bərabər şəkildə edirlər və nəticədə müəyyən şirkətlər qrupu əsassız üstünlük əldə edir. Bu ədalətsizlik isə öz növbəsində, ciddi çətinliklər yaradır. Bu səbəbdən hesab edirəm ki, bu məsələ də bizim gündəliyimizə əlavə edilə bilər və beləliklə, biz gələcəkdə hansı işlərin görüləcəyi ilə bağlı geniş mənzərəyə malik olacağıq.

Qay Ditrix: Çox gözəl. Cənab Prezident, biz çağırışları sevirik. Su ehtiyatlarının idarə edilməsi dünyanın hər yerində çağırışdır. Biz bu sahədə bir sıra layihə və texnologiyalara malikik. Bu, təkcə su ehtiyatlarının idarə edilməsi və nəzarət deyil. Buraya müvafiq sahədə qanunvericilik də daxildir. Çünki dünyanın elə bölgələri var ki, orada infrastruktur olduqca inkişaf etmiş səviyyədədir, lakin orada boru kəmərlərinin zədələnməsi nəticəsində böyük su itkisi baş verir. Mən iki layihəni nəzərdə tuturam ki, biz pilot layihə çərçivəsində orada sensor texnologiyasının tətbiqi və su ehtiyatları sahəsində qanunvericiliklə bağlı məlumatın toplanılması ilə məşğuluq. Biz, əlbəttə, Sizinlə də bu sahədə çalışa bilərik.

Daha bir mövzu "Ağıllı kənd təsərrüfatı"dır. Siz bu sahədə olduqca irəlidəsiniz və Sizin kənd təsərrüfatının inkişafı ilə bağlı baxışınızı reallaşdırmaq üçün müvafiq texnologiyalar artıq mövcuddur.

Azərbaycan Prezidentinin köməkçisi Şahmar Mövsümov "Ağıllı şəhər" layihəsinə toxundu və bu istiqamətdə görülən işlərdən danışaraq dedi:

- Çox təşəkkür edirəm cənab Prezident. CISCO şirkəti ilə çox yaxşı əməkdaşlığımız var. Biz irəli sürülmüş və tərəfinizdən qəbul edilmiş "Smart ölkə" ideyası üzərində çalışacağıq. Düşünürəm ki, bu istiqamətdə "yol xəritəsi"nin, büdcənin və bütün vacib göstəricilərin olması çox önəmlidir. Ümid edirəm ki, "Ağıllı şəhər" layihəsinin icrası mərhələsi yaxınlaşanda biz artıq bu koronavirus məsələsini geridə qoyaraq normal həyata dönəcəyik. Təşəkkür edirəm.

Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə CISCO şirkəti ilə əməkdaşlığa toxundu və indiyədək həyata keçirilən layihələrdən danışaraq dedi:

- Cənab Prezident, hörmətli həmkarlar. CISCO şirkəti ilə əməkdaşlığımız koronavirus pandemiyası dövründə də uğurla davam etmişdir. CISCO şirkətinin bulud platforması və şəbəkə texnologiyalarından istifadə etməklə videokonfrans şəklində mühüm tədbirlər təşkil edilmişdir. Bununla yanaşı, müvafiq texnologiyalar vasitəsilə tərəfimizdən dövlət qurumları üçün virtual görüşlərin təşkili və onlayn xidmətlər təklif edilir. Hazırda biz 8 rəqəmsal prioritet üzərində çalışırıq.

Prezident İlham Əliyev: Hesab edirəm ki, bugünkü müzakirəmiz olduqca vacib və ümidverici idi. Bu təşəbbüslərin tərəfinizdən dəstəklənməsinə görə sizə bir daha təşəkkür edirəm. Biz ölkəni müasirləşdirmək arzusunda olduğumuzda bağlı çoxlu müzakirələr aparmışıq və hər kəs anlayır ki, müasir texnologiyalar olmadan bu, mümkün deyil. Bu səbəbdən, zənnimcə, bu gün müzakirə etdiklərimiz icra olunacaq, çünki əvvəl planlaşdırdığımız bütün təşəbbüslər artıq həyata keçirilib.

Su ehtiyatlarının idarə edilməsi məsələsinə qayıdaraq, siz su itkisi məsələsini düzgün qeyd etdiniz və bizdə də belə problem var. Bəzi hallarda Azərbaycanda su itkisi 40 və hətta 50 faiz təşkil edir. Biz yalnız su itirmirik, biz həm də torpağa ziyan vururuq, çünki torpaq yuyulur və daha sonra kənd təsərrüfatı üçün yararsız olur. Düşünürəm ki, səylərimizi birləşdirərək və sizin təcrübənizdən faydalanaraq bu məhsuldarlığı artırmaqla böyük uğura nail ola bilərik.

Bizim münbit torpaq ehtiyatımız məhduddur. Kənd təsərrüfatı məhsulları ilə özümüzü təmin etmək və ixrac qabiliyyətimizi gücləndirmək üçün biz məhsuldarlığı artırmalıyıq. Bu isə yalnız müasir texnologiyaların tətbiqi nəticəsində mümkündür.

Sonra CISCO şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Conatan Spərrou çıxış edərək dedi:

- Cənab Prezident, həmkarlarımın burada dediklərinə mən də qoşuluram. CISCO şirkətinin Azərbaycan Respublikası ilə əməkdaşlığı fantastik olmuşdur və biz bu əməkdaşlığın davamlı olmasını arzulayırıq.

Daha Sonra CISCO-nun Azərbaycan üzrə regional direktoru Vladimir Orlov çıxış edərək dedi:

- İstərdik ki, Beynəlxalq Avtovağzal Kompleksi regionda icra etdiyimiz bütün pilot layihələr sırasında parlayan bir ulduz olsun. İstərdik ki, şəhərdə tətbiq oluna biləcək bütün texnologiyalar burada istifadə edilsin və biz daha sonra bu layihəni digər dövlətlərə də təklif edəcəyik. "Smart ölkə" layihəsi uzunmüddətli perspektivdə ölkə üçün faydalı olacaq. Burada söhbət yalnız vahid ölkə idarə lövhəsi layihəsindən getmir. Buraya səhiyyə, neft-qaz və digər arzuladığınız sahələr də əlavə edilə bilər. Kibertəhlükəsizlik sahəsində biz "Azərenerji" ilə əməkdaşlıq edirik.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Hesab edirəm ki, yeni əməkdaşlıq formatımızın strukturu rəsmi müəyyən edildikdən sonra bizim qısamüddətli icra planımız olmalıdır, çünki bizim bu məsələlərə ciddi ehtiyacımız var. Müasir dünyada təhlükəsizlik bir nömrəli məsələdir və buraya enerji təhlükəsizliyi də daxildir. Bu səbəbdən kiberhücumlara qarşı müdafiənin bizim üçün əhəmiyyəti daha da artacaq. Bu yaxınlarda, pandemiya vaxtı mən "Azərenerji"nin əməliyyat mərkəzinin açılışında iştirak etdim və burada SCADA sistemi daxil olmaqla bütün əməliyyat sistemləri çalışır. Bizim enerji infrastrukturumuzun müasirləşdirilməsi ilə bağlı böyük planımız var. Mövcud elektrik stansiyalarında yenidənqurma və təmir işləri aparmaqla biz elektrik enerjisi istehsalında ən azı 600 meqavatlıq artım əldə edə bilmişik. Yəni, yalnız resursların optimallaşdırılması sayəsində biz səmərəliliyi artıraraq böyük generasiya gücü əldə etmişik. Beləliklə, bu, əlbəttə, bizim üçün prioritet təşkil edən məsələ olacaq. Səhiyyəyə gəldikdə, hər kəsə aydın oldu ki, koronavirusla uğurlu mübarizədə bu, mühüm amildir. Bütün məhdudlaşdırıcı və təşkilati tədbirlərlə yanaşı, burada həlledici rolu xəstələri müalicə edən həkimlər oynayır. Bu səbəbdən, çox qısa müddət ərzində bizim səhiyyə sistemimiz restrukturizasiya olundu. Biz ən yaxşı xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına verdik. Bu gün 20-dən artıq xəstəxana istifadə edilir. Deyə bilərəm ki, bəzi ölkələrdə ölüm hallarının yüksək səviyyədə olmasının səbəbi xəstəxanalarda çarpayı qıtlığı ilə əlaqəlidir. Onlar fiziki olaraq bütün xəstələri qəbul edə bilmir. Koronavirusun ikinci dalğası baş verdiyi halda Azərbaycanda kifayət qədər əlavə çarpayı mövcuddur. Beləliklə, səhiyyə sisteminin müasirləşdirilməsi heç vaxt olmadığı qədər əhəmiyyətlidir, çünki koronavirusun nə vaxta qədər yayılacağını heç kəs bilmir.

CISCO-nun Ukrayna üzrə regional direktoru Oleq Bodnar kibertəhlükəsizlik sahəsində əməkdaşlıqdan danışdı. Su itkisi məsələsinə gəldikdə isə o dedi:

- Su itkisi məsələsinə gəldikdə, biz, maraqlı mövzudur və bu sahədə regionda bizim hazırda həyata keçirdiyimiz layihə yoxdur. Bu baxımdan, Avropa və Amerikada olan təcrübəni Azərbaycana gətirmək çox yaxşı olardı. Sizinlə çalışmaq fürsətinə görə təşəkkür edirəm.

Xanım Kelli Kramer dedi:

- CISCO heyəti və Azərbaycan arasında keçirilən bu görüş çox səmərəlidir. Cənab Prezident, Sizin kimi liderin texnologiyaya belə açıq olması və onun ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Şadam ki, CISCO bu sahədə Sizinlə əməkdaşlıq edir və hesab edirəm ki, qeyd etdiyimiz məsələlərin icrasını sürətləndirə bilərik. Bu əməkdaşlığın davamlı olmasını arzulayıram. Siz təkcə regionda deyil, dünya çapında texnologiyaya dəstək verən liderlərdənsiniz və bu işdə öndə getdiyinizə görə Sizə təşəkkür edirəm. Düşünürəm ki, biz bu tərəfdaşlığı yaratmaqla ölkəniz haqqında da çox şey öyrənə bilərik.

Prezident İlham Əliyev: Çox təşəkkür edirəm. Əməkdaşlığa və dəstəyinizə görə sizə minnətdaram. Əminəm ki, bizim strateji tərəfdaşlığımız yalnız güclənəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var. Bizim uzun illərdir ki, əməkdaşlıq təcrübəmiz var. Artıq qeyd etdiyim kimi, burada layihələrin uğurlu icrası birgə səylərimizin ən yaxşı təzahürüdür.

Bizim baxışlarımız tam üst-üstə düşür və potensialımızı səfərbər etməklə biz nisbətən qısa müddət ərzində çox işlər görə bilərik. Bu isə bizim Azərbaycanın müasirləşdirilməsi baxışımıza tam uyğun olacaq. Koronavirus pandemiyası başa çatdıqdan sonra sizi Bakıda görməyə ümid edirəm. Xatırlayıram ki, sizi buraya dəvət etmişəm və beləliklə, müzakirəmizi regional formatda davam etdirə bilərik.

Xanım Kelli Kramer:

- Əlbəttə. Biz bu qorxunc pandemiyaya qədər artıq hər bir şeyi planlaşdırmışdıq və vəziyyət yaxşılaşdıqdan sonra mütləq səfər edəcəyik. Hər şeyə çox görə çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Sizə ən xoş arzularımı çatdırıram. Bu müzakirələrə görə sağ olun.

# Nikoldan Nikola çox şey dəyişsə də, bir şey dəyişməyib: faşizm!

***Son bir həftədir ki, Ermənistan mediasında Nikol Paşinyanın faşist ideologiyasına xidmət etməsi ilə bağlı məlumatlar tirajlanır. İravunk.am saytında və digər media orqanlarında gedən materiallarda baş nazirin çıxışlarından faşist qoxusu gəldiyi bildirilir. Hətta onun babasının da vaxtilə nasist Almaniyası legionlarında xidmət etdiyi, bu ideologiyanın daşıyıcısı olduğu haqda məlumatlarda qeyd edilir.***



■ Bu barədə hafta.az-a danışan millət vəkili Elman Məmmədov deyib ki, ermənilərin faşizmə xidmət etməsi son 60-70 ilə dayanmır və tarixi daha qədimdir. Millət vəkilinin fikrincə, faşist ideologiyası ermənilər arasında hələ 19-cu əsrin ikinci yarısından yayılmağa başlayıb. Elman Məmmədov bildirib ki, onlar özlərindən başqa millətləri qəbul etməyiblər:

"Müsəlmanlara qarşı xüsusi qəddarlıqları ilə seçiliblər. Bütün bunlar ermənilərin 19-cu əsrin axırında yaratdığı siyasi partiyaların nizamnaməsində öz əksini tapıb. Yəni, ermənilər faşist ideologiyasının yaradıcılarından biri olublar. Onların 20-ci əsrin sonlarında törətdikləri soyqırımlar da bir daha bunu sübut edir ki, ermənilər faşist ideologiyası ilə bəhrələniblər. Həmin ideologiya ilə yaşayıblar".

Elman Məmmədov onu da deyib ki, Nikol Paşinyanın faşist olmasını elə ermənilərin özü aşkarladılar və ifşa etdilər: "Bunu Ermənistan saytları faktlarla sübuta yetirirlər. Təbii ki, Rusiya mətbuatında da bu barədə tutarlı faktlar yer alıb. Qaregin Njdeyə İrəvanda 6 metrlik heykəlin qoyulması da göz qabağında olan bir məsələdir. Faşistlərə qulluq etmiş Njdenə Ermənistanda səcdə edilir. Onun abidəsi ziyarət olunur. Nikol Paşinyanın qanında, genində faşizm ideologiyası yaşayır. Bütün bunlar ona babası Nikolay Paşinyandan keçib. Ondan dərs alıb. Təbii ki, onun babası faşizmə, həmin ideologiyaya xidmət edibsə, nəvə Paşinyan da həmin ideologiyanın daşıyıcısıdır. Nikol Paşinyanın baş nazirlik dönəmində etdiyi hərəkətlər, verdiyi bəyanatlar onun faşizm ideologiyasına qulluq etməsinin bariz nümunəsidir".

Millət vəkilinin sözlərinə görə, əslində, Ermənistanın baş naziri bu cür çıxışlarla özü-özünü həm cəmiyyətə təqdim edir, həm də özü-özünü ifşa etməklə məşğuldur:

"Onun verdiyi bəyanatlar hansı düşüncə və ideologiya ilə yaşadığının göstəricisidir. Təbii ki, bu, faşizm ideologiyasıdır. Nikol Paşinyan bu məsələdə tək deyil. Ermənistan rəhbərliyində, erməni siyasətində, idarəetmə orqanlarında 100 ildən artıqdır ki, kök salıb. Bu gün də onlarda bu ideologiya mövcuddur. Mənə elə gəlir ki, onları müdafiə edən dövlərlər - xüsusən də Rusiya bu məsələdə diqqətli olmalıdır. Milyonlarla sovet vətəndaşının, o cümlədən, milyonlarla rusun qanının tökülməsində Hitler və faşist Almaniyasına xidmət edən adamları bu gün onlar müdafiə edirlərsə, tökülən qanların qarşısında Rusiya fikirləşməlidir ki, onlar nə edirlər. Bunun ən yaxşı cavabını cənab prezidentimiz Aşqabad sammitində verdi. Paşinyanın və Qaregin Njdenin faşistlərə etdiyi xidmətləri orada tutarlı faktlarla ifşa etdi. Orada da Paşinyan Qaregin Njdeni xalq qəhrəmanı kimi təqdim etməyə çalışdı. Faşizmə xidmət edənləri, eyni zamanda, Azərbaycanda və Türkiyədə kütləvi qırğınlar törədənləri Ermənistanın siyasi rəhbərliyi xalq qəhrəmanı kimi təqdim edir.

Əgər İkinci Dünya müharibəsində faşizm ideologiyasına xidmət edənlər xalq qəhrəmanı kimi təqdim olunursa, deməli, bunlar bütövlükdə faşizmə xidmətlərini davam etdirirlər. Bu gün də həmin ideologiya ilə yaşayırlar. Hesab edirəm ki, hər kəs bundan nəticə çıxarmalıdır".

"Ermənilərin genetikasında irqçiliyə, faşizmə meyil güclüdür. Bunu dünyanın əksər ölkələrində aparılan araşdırmalar göstərir".

■ **Bunu hafta.az-a açıqlamasında ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı deyib.** Onun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyanın babasının faşistlərə xidmət etməsi, SSRİ-yə qarşı vuruşması təəccüblü deyil: "Ermənilərin genetikasında faşizm var. Araşdırmaların göstərir ki, ermənilər onlar üçün lazım olanda nəinki almanlarla, başqa xalqlarla da əməkdaşlıq edə bilərlər. Paşinyanın özü də faşizmə meyilli adamdır. Bunu Qaregin Njdeyə heykəl qoyulması məsələsində gördük. Ermənilərin qəhrəmanı yoxdur. Ona görə terrorçuları qəhrəman hesab edirlər".

Qafar Çaxmaqlının sözlərinə görə, ermənilər bədbəxt millətdir, çünki özünə faşisti qəhrəman seçən millət yazıqdır: "İndiki Ermənistan cəmiyyəti faşist ideologiyası ilə yüklüdür. Nikol Paşinyanın özü də faşizmi dəstəkləyir. Təbiidir ki, onun babası bu işlərlə məşğul olub. Paşinyan da babasının yolunu davam etdirir". "Artıq erməni ictimai fikri Nikol Vartanoviç Paşinyanın faşist ordusunun sıralarında, Qaregin Njdenin başçılıq etdiyi legionda xidmət etdiyi və bundan irəli gələn digər yozumlarla dolub".

■ **Bunu hafta.az-a açıqlamasında Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri, Milli QHT Forumu İdarə heyətinin üzvü Əkbər Qoşalı qeyd edib ki, açığı, bu fakt, şəxsən onda ikili fikir yaradır:** "Birincisi, Nikol öz böyük adaşının - babasının qeyri-insani əməllərini bu gün demokrat libası geyərək davam etdirir. Nikoldan Nikola çox şey dəyişsə də, bir şey dəyişməyib: faşizm! - Öz xəstə, qeyri-insani erməni maraqlarını bəşəri maraqlardan, başqalarının qanuni haqlarından üstün tutmaq, öldürmə, qan-qada İkincisi, biz baba Nikolun faşizmə xidmətindən danışırıq, amma işin ilginc tərəfi budur ki ələqədar dövlətlər Ermənistana "gözün üstündə qaşın var" demir. Deyincə də, xəfifcəsinə, işğalçı ilə işğala məruz qalanı eyni tutarmışcasına deyirlər və bu da elementar ədalət prinsiplərinə uyğun gəlmir. Nikol həmin o "9 may"ın ildönümü günü (amma başqa səbəbdən) bizim Şuşaya gəlib, arvadına da hərbi-səhra geyimi geyindirərək, eyforiyaya qapılır. Əlində guya "siyasi həll yolu qovluğu" - "ədalət tərəzisi" tutanlar da buna seyrçi qalırsa, deməli, biz baba Nikoldan çox, nəvə Nikoldan danışmalıyıq. Əlbəttə, yalnız danışmaq yox, tədbirlər tökməliyik. Söhbət nə yalnız ordudan, nə də yalnız diplomatlardan gedir, mən ümumən deyirəm: hamımız milli məsuliyyət, vətəndaş məsuliyyəti hiss etməliyik. Bunun da ən uyğun formulu, "ən vətənpərvər insan, öz işini yaxşı görən insandır" şəklində, daha doğrusu, mahiyyətindədir".

"İndi Ermənistanın baş naziri Nikol Paşinyan baş sındırır ki, bu biabırçılığı necə ört-basdır etsin? Amma tarixi faktları təhrif etmək, gizlətmək o qədər də asan deyil. Etdiklərinin cavabını bir gün verməli olacaq".

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili Elman Nəsirov deyib. Millət vəkili bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babasının bir vaxtlar dünyaya hökmranlıq etmək istəyən faşistlərə xidmət etməsi faktı onun işğalçılıq siyasətinin mahiyyətini ortaya qoyur.**

Demək ki, bu, gendən gələn bir şeydir: "Faşizm üzərində Qələbənin 75 illiyinin qeyd olunduğu bir vaxtda bu məsələnin üzə çıxması ilahi ədalətdir. Təcavüzkar, işğalçı ölkənin baş naziri və onun ələtləri nə qədər maskalansalar da, onların iç üzləri bir gün açılmalıydı".

Elman Nəsirov deyib ki, Azərbaycan torpaqlarını işğal edən və 1 milyon insanı öz dədə-baba yurdundan didərgin salan, minlərlə insanı qətlə yetirən ölkənin rəhbərinin faşist ideologiyasına xidmət etməsi heç də təəccüb doğurmur: "Onlar da faşistlər kimi dünyaya hökmranlıq etmək xülyası ilə yaşayırlar. Nasizmi təbliğ edən Adolf Hitlerin arzuları suya düşdüyü kimi, Paşinyan və onun hakimiyyətinin də niyyətləri puç olacaq. Haqq-ədalət yerini tutacaq. Paşinyan Qələbə günü babasının fotoşəklini fəxrlə sosial şəbəkədə paylaşanda acı nəticəsini bilsəydi, əlbəttə, bunu etməzdi".

Deputat bildirib ki, işğalçı ölkənin baş naziri sosial şəbəkədə etdiyi "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyanın 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda həlak olanlara əbədi eşq olsun" paylaşımından sonra Ermənistan KİV-ləri Böyük Vətən müharibəsi zamanı həlak olmuş və ya itkin düşmüş şəxslər haqqında məlumatların göstərildiyi Obd-memorial.ru saytında araşdırma aparıblar.

Paşinyanın təqdim etdiyi şəxs haqqında axtarışlar onu deməyə əsas verib ki, Nikol Paşinyanın babası Nikolay Vartanoviç Paşinyan Böyük Vətən müharibəsi zamanı faşistlərlə birbaşa əlaqədə olaraq SS sıralarında xidmət edib. İndi də Paşinyan bu məsələni ört-basdır etməyə çalışır".

Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkar edilib. Hafta.az xəbər verir ki, Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan verilən məlumata görə, 4 may 1945-ci il tarixində ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frank Hook erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meyilləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim edib.

"Sözügedən məqalə ABŞ Konqresinin qeydiyyat kitabçasına daxil edilərək ABŞ hökuməti tərəfindən dərc edilib.

Məqalə daşnakları uzun müddət terrorçu-faşist aktları həyata keçirən və yaxşı təşkilatlanmış "quldur dəstəsi" adlandırır. Daşnakların yaranma tarixindən bəhs edən məqalə onların terrorizmi əsas siyasi alət kimi mənimsədiklərini bildirir. Erməni daşnaklarının ABŞ-da "daşnaksutyun" partiyasına ianə köçürməkdən imtina edən və ya onların radikal ideologiyasını paylaşmayan ermənilərə qarşı terror aktları törətdiklərini qeyd edən məqalə bu səpkidə Amerikadakı erməni Kilsəsinin rəhbəri arxiyepiskop Leon Tourianın 1933-cü ildə Nyu-Yorkdakı kilsədə Milad bayramı ibadəti zamanı daşnak terrorçular tərəfindən qətlə yetirildiyini diqqətə çatdırır.

Daşnakların nasizmə rəğbət bəslədiklərini vurğulayan məqalə onların ABŞ-ın Boston şəhərində nəşr edilən "Hairenik" qəzetinin 17 sentyabr 1936-cı il sayına istinad edərək, daşnakların hitlerizmi və faşizmi "bəşəriyyətə hədiyyə" və "Almaniya və İtaliyaya yeni həyat verən uğurlu sistemlər" hesab etdiklərini qeyd edir.

Məqalə daha sonra daşnakların kəskin antisemit olduqlarını vurğulayaraq, onların bu mövzuda çoxlu məqalələr dərc etdirdiklərini bildirir və "Hairenik" qəzetinin 1936-cı ilin avqust sayından daşnakların Holokostu dəstəklədiyini göstərən aşağıdakı sitat təqdim olunur:

"Bu zəhərli elementlər xroniki xəstəlik kimi dərin kök saldıqları üçün bəzən onların kökünü kəsmək çətindir. Və insanlar üçün qeyri-adi üsulla onların kökünü kəsmək zəruri olduqda bu cəhd və üsullar inqilabi hesab edilir. Cərrahiyyə əməliyyatı zamanı isə qanın axması normaldır Bu cür şəraitdə diktatorluq xilaskar rolunu oynayır".

Göründüyü kimi, erməni daşnakları altı milyon yəhudinin nasistlər tərəfindən öldürülməsini "zəhərli elementlərin kökünü kəsmək üçün cərrahiyyə əməliyyatı" adlandırır.

Sözügedən sənəddə, həmçinin nasistlərə xidmət etmiş erməni Qaregin Nje haqda məlumat verilərək, onun erməni irqçiliyini təbliğ edən Tseqakronizm nəzəriyyəsinin əsasını qoyduğunu və əsasən erməni gənclər arasında bu ideyanı yaydığını, habelə onun Hitlerin irqçi ideyalarını tərənnüm etdiyini və bu ideyaları özü üçün əsas götürdüyünü vurğulayır. Məqalə həmçinin Njde və onun erməni daşnak tərəfdaşlarının erməni gənclərinə bu irqçi ideyaları mənimsəmələri və bu ideyalara sadiq qalmaları ilə bağlı çağırışı özündə ehtiva edən və "Hairenik Weekly" qəzetinin 11 yanvar 1935-ci il sayında dərc edilmiş müraciətini təqdim edir. Qeyd etmək lazımdır ki, ABŞ-da Azərbaycana qarşı məkrli fəaliyyət göstərən əsas erməni lobbi təşkilatı - Amerika Ermənilərin Milli Komitəsi - Daşnak təşkilatıdır", - deyə qeyd olunub.

✍ *Tural*

# Aİ Şurasının 11 may tarixli qərarı Avropadan Ermənistana növbəti zərbədir



Səməd Seyidov,
Milli Məclisin deputatı



Sevinc Fətəliyeva,
Milli Məclisin deputatı

**Mayın 11-də Avropa İttifaqı (Aİ) Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı (ŞT) siyasəti ilə bağlı yekun qərarı dərc edilib. Avropa İttifaqına üzv dövlətlərin və Aİ Şurasının ŞT-nin gələcəyi ilə bağlı mövqeyini əks etdirən bu qərarı şərh edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib.**

Səməd Seyidov bildirib ki, hazırda dünyada baş verən və bir çox ölkələrin siyasi, iqtisadi nüfuzunu sarsıdan pandemiyanın informasiya gündəmini zəbt etməsi səbəbindən bəzi məsələlərə yetərincə diqqət yetirilmir.

Lakin mayın 11-də Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı yekun qərarı diqqətdən kənarda qalan məsələlər sırasında deyil. Belə ki, bu qərar çox ciddi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Ermənistana, eləcə də onun destruktiv siyasətinə Aİ tərəfindən güclü bir zərbə kimi qiymətləndirilməlidir. Söhbət Şərq Tərəfdaşlığı proqramı çərçivəsində ölkələrlə Avropa İttifaqının münasibətlərinin tənzimlənməsi və gələcəkdə ŞT üzv dövlətlərinin növbəti Zirvə görüşündə qəbul olunacaq sənədlərə dair tövsiyələrdən gedir.

Komitə sədri deyib: "Biz, Azərbaycan olaraq həmişə beynəlxalq təşkilatlarla münasibətlərdə qanunun aliliyinə, beynəlxalq qanunun, bu istiqamətdə Helsinki Yekun Aktının beynəlxalq sənədlərdə tətbiq olunmasına tərəfdar çıxmışıq. Azərbaycan olaraq heç bir siyasi konyekturadan asılı olmayaraq vahid yanaşma və ümumi beynəlxalq qanuna söykənən prinsiplərin mövcudluğunun əhəmiyyəti haqqında dəfələrlə çıxış etmişik və edirik. Məhz bu mövqe, bu yanaşma Aİ Şurasının 11 may tarixli qərarının 2-ci bəndində ŞT-nin siyasi və hüquqi əsasları, o cümlədən ən vacib fəaliyyət prinsiplərində əks olunur. Şura Avropa Qonşuluq Siyasətinin spesifik regional "ölçüsü" olan ŞT-nin strateji əhəmiyyətini bir daha vurğulayaraq, vahid demokratiya, rifah və sabitliyin ümumi məkanının qurulması ilə bağlı birgə öhdəliyi yenidən təsdiq edərək ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara söykənən Aİ ŞT-nin əsas prinsiplərini təsdiq edir. Bu, sadəcə, sözlər deyil, bu, Aİ-nın Şərq Tərəfdaşlığı proqramında olan ölkələrlə münasibətlərin tənzimlənmə prinsipləridir. Bu prinsiplər bu şəkildə təqdim edilirsə, bu, Azərbaycanın maraqlarına tam uyğundur, ermənilərə isə növbəti zərbədir".

Səməd Seyidov vurğulayıb ki, bu qərarda bir vacib məqama da diqqət yetirmək lazımdır. Paşinyan və onun ətrafında olan separatçılar uzun müddətdir ki, Qarabağ separatçılarının tərəf kimi danışıqlara cəlb olunmasına cəhd göstərirlər. Azərbaycan Prezidenti dəfələrlə bu siyasətin iç üzünü açaraq onun məntiqsizliyini dünya ictimaiyyətinə təqdim edib. Bu gün isə bu qərarla danışıqlar formatının razılaşdırılmış formada davam etdirilməsi Aİ tərəfindən bir daha təsdiq olunub. İndi özünüz qərar çıxarın, Aİ Şurası ali bir orqandır. Aİ hər hansı bir proqram, o cümlədən ŞT proqramına daxil olan ölkələrin ərazi bütövlüyünə müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Bu, ilk növbədə, o deməkdir ki, bütövlüyü pozulmuş, münaqişə nəticəsində işğal olunmuş ərazilərin məsələsi həmin prinsiplər həyata keçirilməklə razılaşdırılmış formatda öz həllini tapmalıdır. İkincisi, bu, Azərbaycanın xarici siyasətinin dövlətimizin başçısının vurğuladığı məsələlərin bu beynəlxalq təşkilat tərəfindən dəstəklənməsi deməkdir. Nəhayət, Aİ Şərq Tərəfdaşlığının üzvü olan Azərbaycan ilə bütün sahələrdə geniş əlaqələr qurmaqda maraqlı olduğunu və bu əlaqələrin inkişaf etdirilməsinə səy göstərildiyini bəyan edib.

"Bir sözlə, ərazi bütövlüyünü tanıyan, razılaşdırılmış formatda danışıqları aparan Avropa İttifaqı ilə əlaqələrin təşkil olunması Aİ Şurasının sənədlərində də öz əksini tapıb. Bu, Ermənistanın yalan, böhtan əsasında aparılan destruktiv siyasətinə böyük zərbədir. Biz bu istiqamətdə səylərimizi davam etdirməli və Avropa təşkilatlarında, beynəlxalq qurumlarda Azərbaycanın milli maraqlarını ən yüksək səviyyədə müdafiə etməliyik", - deyə Milli Məclisin komitə sədri bildirib.

■ **Mayın 11-də Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı yekun qərarı böyük əhəmiyyət kəsb edir.** Bu sənəd dövlət və milli maraqlarımıza cavab verir. Bu fikirləri isə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, Avropa İttifaqı Şurasının təsdiqlədiyi bu sənəd Aİ-nin Şərq Tərəfdaşlığı siyasətinin prioritetlərini müəyyənləşdirir. Aİ üzv ölkələrlə münasibətlərini məhz bu sənəddə yer alan prinsiplər əsasında davam etdirəcək. Onun sözlərinə görə, bu qərarın 2-ci bəndində Şərq Tərəfdaşlığının siyasi və hüquqi əsasları, o cümlədən ən vacib fəaliyyət prinsipləri əks olunur.

Deputat deyib: "Belə ki, Aİ Şurası Avropa Qonşuluq Siyasətinin spesifik regional "ölçüsü" olan Şərq Tərəfdaşlığının strateji əhəmiyyətini bir daha vurğulayaraq, vahid demokratiya, rifah və sabitliyin ümumi məkanının qurulması ilə bağlı birgə öhdəliyi yenidən təsdiq edir. Eyni zamanda, Aİ Şurası Şərq Tərəfdaşlığı məkanının fəaliyyətinin əsaslarını müəyyən edən ortaq öhdəliklər sırasında Helsinki Yekun Aktının və ATƏT-in Paris Nizamnaməsinin prinsiplərində də qeyd olunduğu kimi, ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara, həmçinin fundamental dəyərlərə, azlıqlara mənsub şəxslərin hüquqları daxil olmaqla, bütün şəxslərin insan hüquqlarına və fundamental azadlıqlarına hörmət, demokratiya, qanunun aliliyi, yaxşı idarəçilik, gender bərabərliyi, davamlı inkişaf və bazar iqtisadiyyatına dair Aİ-nin ortaq öhdəliklərini təsbit edir. Təbii ki, bu amil işğalçı Ermənistanın mövqeyinə ziddir. Çünki hər zaman Ermənistan ərazi bütövlüyü məsələsini aqressiya ilə qarşılayır və işğalçı siyasətini davam etdirməyə çalışır".

O qeyd edib ki, Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq Azərbaycanın torpaqlarının bir hissəsini hələ də işğal altında saxlayır. Aİ Şurasının qərarında ərazi bütövlüyü məsələsinin təsbit olunması Ermənistanın işğalçı mövqeyinə ciddi zərbə vurur. Bu sənəd Azərbaycan diplomatiyasının növbəti ciddi uğuru, Ermənistanın isə diplomatik cəbhədə daha bir məğlubiyyətidir.

Bütövlükdə, bu fakt Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu xarici siyasətin əyani nümunəsi, eləcə də ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir. Beləliklə, Azərbaycanın hücum diplomatiyası növbəti dəfə işğalçı Ermənistana ciddi zərbə vurdu.

✍ *Hafta.az*

# Altı prokuror işdən çıxarıldı

**Bir neçə rayonun prokuroru işdən çıxarılıb. Baş prokuror Kamran Əliyev bununla bağlı müvafiq əmr imzalayıb. Əmrə əsasən, Xətai rayon prokuroru Yusif İldırımzadə, Sabunçu rayon prokuroru Ceyhun S?irinov, Nəsimi rayon prokuroru Salman Məmmədli, Qəbələ rayon prokuroru Məqsəd Orucov, Yevlax rayon prokuroru Elxan Pənahov tutduqları vəzifədən azad ediliblər.**



K.Əliyevin digər əmri ilə Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsinin rəisi Niyaz Məmişov da işdən çıxarılıb. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov faktı təsdiqləyib. O qeyd edib ki, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq prokurorluqda qulluqda olmanın yaş həddinə çatdıqlarına görə həmin şəxslərin Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlərlə tutduqları vəzifədən azad edilməklə prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilib. E.Sultanov, həmçinin bildirib ki, Baş prokuror K.Əliyevin imzaladığı digər əmrlə Ağstafa rayon prokuroru Aslan Surxayev isə tutduğu vəzifədən azad olunub. Qeyd edək ki, Baş prokuror Kamran Əliyev videokonfrans formatında qəbul edən Prezident İlham Əliyev prokurorluq orqanlarına islahatların aparılmasına dair öz tövsiyələrini verib.

✍ *Hafta.az*

# PYD-PKK-nın türklərə qarşı yeni planı - "Nübar Ozanyan batalyonu"

***1970-ci illərdə ASALA-nı, 80-ci illərdə isə PKK-nı yaradaraq Türkiyəyə qarşı mübarizəyə sövq edən böyük güclər, indi də PKK/PYD terror təşkilatının nəzdində yeni bir terror təşkilatı qurub. Hafta.az yazır ki, PYD-nin erməni qolu olaraq yaradılan qondarma "Nübar Ozanyan batalyonu" adlı təşkilat, 2017-ci ildə öldürülmüş terrorçu Ozanyanın şərəfinə adlandırılıb.***



Təşkilat PKK/PYD birliyinin nəzarətindəki Suriya Demokratik Güclərində (SDG) xidmət edən terrorçulardan ibarətdir. PYD-nin ABŞ-dan aldığı dəstəyi artırmaq üçün beynəlxalq ictimaiyyətin diqqətini Suriyaya çəkmək məqsədilə yaradılan bu təşkilatın plan və məramları Türkiyə tərəfindən aşkarlanıb. Milli İstihbarat Təşkilatı (MİT) qaynaqlarına görə, batalyonda 40-50 civarında silahlı toplaşıb. PKK/PYD-nin bu qondarma batalyonu "Erməni soyqırımı" təbliğatı və SDG-nin bölgədəki bütün azlıqları təmsil etməsinə dair fikir formalaşdırmağa çalışmaqla məşğuldur.

"Sabah"ın yazdığına görə, "Nübar Ozanyan batalyonu" 2019-cu ildən ASALA terror təşkilatını özünə flaqman olaraq qəbul edib. PYD-nin içində mikrotəşkilat kimi təşkil edilən bu batalyonun hədəfi qondarma erməni soyqırımının təbliğatını aparmaqla yerli və beynəlxalq ictimaiyyətini diqqətini çaşdırmaq, SDG-nin əməliyyatlarını sonadək dəstəkləmək, eləcə də erməni xalqını, dilini və mədəniyyətini qorumaqdır. Batalyonda cəmlənmiş silahlıların əksəriyyəti erməni olmayan, bölgənin yerli xalqına yad, PKK/KCK-PYD/-YPG ittifaqına bağlı terrorçulardır. Eyni zamanda, maraqlısı budur ki, batalyonda yığılmış terrorçuların əksəriyyəti YPG/YPJ-də fəaliyyət göstərmiş qadın terrorçulardır. Terrorçu yığınına TKP/ML tərəfdarı, Marksist-Leninçi fikirləri ilə tanınan Monte Vartanyan komandanlıq edir, köməkçiləri isə Nübar Melkonyanla Masis Mutanyandır.

Sözügedən batalyonun Həsekə/Tel Tamir cəbhəsində SDG cəbhəsində, Türk Silahlı Qüvvələrinə və Suriya Milli Ordusuna qarşı savaşdığı məlumdur. Bununla birlikdə, batalyonun başqa bir hərbi cəhəti də var: təşkilatlanma işləri birbaşa SDG tərəfindən həyata keçirilib hazırda məhz SDG-nin nəzarətindədir. Heç bir səlahiyyət və vəzifə verilməyən, SDG içində lazımsız, passiv təşkilat olaraq qalan batalyonun genişlənməsi və inkişafı üçün sonradan heç bir addım atılmayıb. Ən vacibi isə, ABŞ başda olmaqla, erməni lobbisinin güclü olduğu digər ölkələrdə də bu batalyona nə maraq mövcuddur, nə də hər hansı başqa əlaqə. MİT-in araşdırmalarına əsasən, haqqında söz açdığımız bu batalyonun üzvləri Beşər Əsədin nəzarətindəki Suriya torpaqlarında tam sərbəst hərəkətə və fəaliyyətə malikdirlər. Gəncləri sıralarına qəbul etməyə səy göstərən, buna qarşı çıxanları isə öldürən PKK/KCK-PYD/YPG birliyi öz təbliğat və təşviqatları ilə erməniləri, hətta ölkədəki digər xristianların rəğbətini qazanmaq istəyir. Aldadıb özünə cəlb edə bildiyi həmin adamaları isə əsasən, ön cəbhədə döyüşməyə məcbur edir. O da məlum olub ki, təşkilat öz daxilində erməni batalyonu yaratmaqla, hazırda türkiyədə yaşayan erməniləri də Türkiyə dövlətinə və türk millətinə qarşı çıxarmağa çalışır.

Sonda xatırladaq ki, batalyona adı verilmiş erməni-silli terrorçu Nübar Ozanyan, kod adı Orhan Bakırcıyan olan, TKP/ML-in başçısıdır. O, 2017-ci ilin avqustunda Raqqada YPG/PKK sıralarında döyüşərkən həlak olub. Ozanyan 1991-1992-ci illər arasında Azərbaycanın Qarabağ bölgəsində gedən müharibədə iştirak edib, azərbaycanlılara qarşı savaşıb. O, eyni zamanda, YPG/PKK-nın nəzarətindəki bölgələrdə fəaliyyət göstərən terrorçuların təliminə də cavabdeh idi.

*✍ Vüsal Tağıbəyli*

# Karantin rejimi bu ilin sonuna qədər davam edəcək

**"Hərbi müəssisələrdə çox ciddi karantin tədbirləri görülüb". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib.**

R. Bayramlı deyib ki, bu günə qədər koronavirusa ciddi yoluxma halı müşahidə olunmayıb: "Bəzi zabitlər arasında az-az yoluxma halı var idi, müalicəyə cəlb olundular. Hərbi müəssisələrdə ciddi yoluxma hallarına rast gəlinməyib". "Koronavirus zamanı ağciyərlər ciddi zədələnir". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, vərəm və digər infeksion xəstəliklər keçirənlər, xroniki xəstəlikləri olanlar, siqaret çəkənlər yoluxan zaman ağciyərdə ciddi problemlər yaranır: "Bu insanlar gələcəkdə də nəfəs çatışmazlığından əziyyət çəkə bilərlər. Bu xəstəlikdən sağalanların gələcəkdə əlilliklə üzləşməsi mümkündür. Gənclərin isə sağaldıqdan sonra toxumaları gənc olduğu üçün onların ciddi fəsadlarla üzləşməsi gözlənməyə bilər. Bu xəstəliyin digər insanlarda hansı fəsadlar yaratması hələ araşdırılmayıb, bu, gələcəkdə tam məlum olacaq".

"Bakı metrosunun açılmasından sonra koronavirusa yoluxmada ciddi artımın olması barədə bizdə fakt yoxdur". Ramin Bayramlı deyib.

O qeyd edib ki, son dövrlər yoluxma daha çox lokal, iş yerlərində qaydalara məsuliyyətsiz yanaşma ilə əlaqədardır: "Biz həmişə demişik ki, ikinci dalğa ola bilər. Bizim əhalimizə bərabər sayda olan Avropa dövlətlərində on minlərlə yoluxma olub. Bizdə isə yoluxanların sayı 3 minə yaxınlaşır. Vətəndaşlarımız da artımın olmaması üçün məsuliyyətli olmalıdırlar".

"Bəzi tibb müəssisələrində əvvəllər ciddi yoluxma olmuşdu. Buna görə bir sıra tibb müəssisələrinin rəhbərləri dəyişdirildi, bəzilərinə töhmət verildi". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, pandemiya xəstəxanalarında tibb işçiləri arasında yoluxma olmayıb: "Digər tibb müəssisələrində yoluxma baş verib. Hazırda tibb müəssisələrində ciddi yoluxma halları yoxdur".

"Dəniz suyunda virusun ömrü çox



az olur, yoluxma ehtimalı aşağı səviyyədədir ". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, restoran və kafelərə girişlə bağlı xüsusi qaydalar müəyyənləşib: "Orada sosial məsafə gözlənilməli, işçilər tibbi maska taxmalıdırlar. Masalar arasında məsafə ilə bağlı qaydanı pozan kafe və restoranlar ciddi cəzalandırılacaq ".

TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, ölkədə satışda kifayət qədər tibbi maska var : "Biz Azərbaycanda istehsal edilən maskalardan da istifadə edirik. Hazırda maska ilə bağlı hər hansı problemimiz yoxdur. Hətta olsa belə, evdə tibbi maska hazırlanması ilə bağlı təlimatımız hazırlanıb. Yaxın günlərdə ölkəmizin hər yerində bununla bağlı reklam xarakterli materiallar yerləşdiriləcək". "Bütün dünya ölkələri sərt karantin rejimi əvəzinə insanları virusla birgə yaşamağa öyrəşdirməyə başlayıb". Ramin Bayramlı bildirib.

R. Bayramlı deyib ki, yaxın 1 il ərzində vaksinin əldə olunması gözlənilmir: "Virusu orqanizmdən kənarlaşdırmaq üçün dərman da yoxdur. Bütün amillər deməyə əsas verir ki, qaydalar çərçivəsində yaşamağa alışmalıyıq". TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, Azərbaycanda karantin rejimi bu ilin sonuna qədər davam edəcək: "Ola bilər ki, xüsusi karantin rejimindən çıxaq. Tibb müəssisələrimizin resursları, tibbi imkanlarımız xəstələrin vaxtında aşkar olunması və müalicəsinə adekvatdır. Ancaq bu yükün nə dərəcədə artması vətəndaşlarımızın sosial məsuliyyətindən asılı olacaq. Ən azı ilin sonuna qədər karantin rejimində, tibbi maska və əlcəklərdən istifadə etməklə kontrollu həyat tərzi ilə yaşayacağıq".

*✍ Hafta.az*

# Nikol Paşinyanın SS legionunda xidmət etməsi haqqında məlumatı Ermənistanın özündə ifşa ediblər

**Ermənistanın baş naziri Nikol Paşinyanın sosial şəbəkədə öz səhifəsində Böyük Vətən müharibəsində vuruşmuş babasının fotoşəklini dərc etməsi son günlərdə KİV-lərdə geniş müzakirə edilir.**

Amma ekspertlərin çoxunun tapdığından məlum olur ki, Ermənistanın baş nazirinin qohumu nasistlərə qarşı vuruşmayıb, əksinə, SS-çilərin erməni legionuna xidmət edib. AZƏRTAC bu mövzunu "Vestnik Kavkaza" Rusiya Federal İnformasiya-Analitik Agentliyinin baş direktorunun müavini, politoloq Andrey Petrovla müzakirə edib.

***- Ermənistanın baş naziri Nikol Paşinyan bu günlərdə özünün Facebook səhifəsində babasının fotoşəklini paylaşıb və həmin fotoşəklin altında bu sözləri yazıb: "Nikol Paşinyan, 1913-1943-cü illər. 138-ci atıcı diviziyasının 554-cü alayında xidmət edirdi. Vətən uğrunda həlak olanların xatirəsi əbədi yaşayacaq". Amma ekspertlərin çoxu hesab edir ki, baş nazir babasının nasistlərlə əməkdaşlıq etməsi haqda məlumatı gizlədib. Bu barədə sizin fikriniz necədir?***

- Əvvələn, maraqlıdır ki, Nikol Paşinyanın qohumu Nikol Vartanoviç Paşinyanın SS legionunda xidmət etməsi haqqında məlumatı gizlətmək cəhdini Ermənistanın özündə ifşa ediblər. İki il ərzində baş nazirin yalnız özü üçün sərfəli olanı demək və onun dediklərini heç kəsin yoxlamayacağına ümid etmək taktikası dəyişməyib. Bundan əvvəl, Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsi və Qafqazın tarixi barədə Paşinyanın yalanının üstünü açanda puç olmuş taktika bu dəfə Ermənistanın daxili auditoriyasında fiaskoya uğrayıb.



**Andrey Petrov,**
"Vestnik Kavkaza" Rusiya Federal İnformasiya-Analitik Agentliyinin baş direktorunun müavini, politoloq

Bu fakt onu göstərir ki, Paşinyan Ermənistanda siyasi proseslərdən geri qalmağa başladı. Bu günə qədər o həm öz opponentlərindən, həm də zərən müttəfiqlərindən dərs almalı və özünü maksimum ehtiyatlı aparmalı idi, amma hələ də özünü elə aparır ki, guya "inqilab" dünən baş verib və küçələrdə insanlar hələ də onun hər sözünə inanırlar. Əslində isə indi onun hər sözü yoxlanır və ölçülüb-biçilir, adəti üzrə həqiqətin gizlədilməsi dərhal gözə çarpır və hamıya elan edilir.

Qeyd etmək lazımdır ki, daxili auditoriya üçün ən mənfi fakt Paşinyanın qohumunun Sovet İttifaqının düşməni ilə əməkdaşlıq etməsi yox, məhz odur ki, baş nazir növbəti dəfə ağ yalan danışmağa cəhd göstərib. Barədə məntiq çox sadədir: - əgər o, öz əcdadları haqqında yalan danışırsa, həqiqəti gizlədirsə, onda bu qayda ilə öz komandasının işi, bütövlükdə Ermənistanın iqtisadiyyatı və həyatı haqqında da yalan danışa və həqiqəti gizlədə bilər. Çox güman ki, bu qalmaqalın ən əhəmiyyətli effekti - respublikada Nikol Paşinyanın etimadına özünün vurduğu ciddi zərbədir.

***- Məlum fotoşəklin altında yazılan şərhlərdə göstərilir ki, indiki baş nazirin babası Nikol Paşinyan 1943-cü ildə nasist ordusu sıralarında, Qaregin Njdenin SS legionunda vuruşub. Sizə elə gəlmirmi ki, Ermənistanın baş naziri nasistlərə xidmət etmiş qohumunun fotoşəklini dərc etməklə respublikada nasizm təbliğatını davam etdirir?***

- Paşinyan öz qohumunun SS erməni legionunda xidmət etməsi haqqında sənədi dərc edə bilərdi, amma halda bu sənədi gizlədib. Bu, nasistlərin əlaltısı Qaregin Njdeni təbliğ etmək aktı deyil, onun cinayətlərini bildiyi halda bu barədə susma taktikasının təzahürüdür. Təhlükəsizlik məsələləri üzrə Münxen konfransında Baş nazir özü etiraf etmişdi: Onun həyata baxışlarının dəyişməsini biz şərh etmirik; biz bu barədə heç nə demirik". Paşinyan Qaregin Njdenin törətdiyi, o cümlədən SSRİ-yə qarşı cinayətlər haqqında faktları və sənədləri inkar etmək mümkün olmadığını başa düşdüyü üçün onlar haqqında sadəcə susmağa və mövzudan uzaqlaşmağa üstünlük verir.

Burada da eyni vəziyyətdir: Nikol Paşinyan ardıcıllıq nümayiş etdirərək, bütövlükdə SS erməni legionu haqqında və deməli, onun qohumunun bu legionda iştirakına şahidlik edən sənəd haqqında da susmağı qərara alıb, sanki belə bir legion heç vaxt mövcud olmayıb. Yəni insanlığa qarşı hərbi cinayətləri unutmaq xətti götürülüb. Bu isə, əlbəttə, Böyük Vətən müharibəsi haqqında tarixi həqiqətin təhrif edilməsi formalarından biri kimi cinayətdir.

***- Dağlıq Qarabağ münaqişəsi haqqında da bir sualım var. Son zamanlar ekspertlər bu problemin mərhələli və ya paket həlli haqqında müxtəlif fikirlər səsləndirirlər. Bir ekspert kimi, Sizi hansı variant daha çox cəlb edir?***

- Əlbəttə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının paket variantının həm razılaşdırılması, həm də reallaşdırılması daha mürəkkəbdir, çünki bu variant, əvvələn, yalnız bütün məsələlərə dair danışıqlar tamamlanandan sonra onları reallaşdırmağa başlamağı və ikincisi, münaqişə zonasında vəziyyətin bütün keçid mərhələlərinin buraxılmasını nəzərdə tutur. Yeri gəlmişkən, Ermənistan məhz paket ssenarisi üzərində təkid edə bilərdi, çünki bu halda dinc yolla nizamlama vaxtı uzanardı, amma işğalçı tərəf üçün status-kvonu dəstəkləyən hər variant sərfəlidir. Mərhələli plan, öz növbəsində, münaqişəni nizamlamağa burada və indi başlamağa imkan verir, çünki bu halda addımlar "porsiyalarla" razılaşdırılır və həyata keçirilir, bu addımları həm reallaşdırmaq, həm də onlara nəzarət etmək daha asan olar. Prosesi irəlilətməyə başlamaq və ən başlıcası, sonrakı mərhələlər üçün, hər şeydən əvvəl, qaçqınların və məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına şərait yaratmaq üçün Azərbaycan rayonlarının işğaldan azad edilməsinin birinci mərhələsi haqqında razılaşmaq kifayətdir. Hər mərhələ növbəti mərhələyə səbəb olacaq və beləliklə, münaqişə tədricən başa çatacaq və Cənubi Qafqazda çoxdan gözlənilən sülh bərqərar olacaq.

## GÜNÜN TƏZADLARI

### Bakıda kişi avtomobilini pivəxanaya çevirdi



**■ Paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsində sanitar-karantin rejimi qaydalarına zidd olaraq gizli şəkildə fəaliyyət göstərən pivəxana aşkar edilib.** Hafta.az xəbər verir ki, bununla bağlı Daxili İşlər Nazirliyi məlumat yayıb. Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdikləri tədbir zamanı qəsəbənin R.Axundov küçəsində yerləşən "Kabak" restoranının sahibi Samir Qəhrəmanovun sanitar-karantin qaydalarına zidd olaraq fəaliyyət göstərdiyi və müştəriləri qəbul etdiyi məlum olub. Hətta obyektin sahibi restoranın işlədiyi barədə xüsusi reklam çarxları hazırlayaraq sosial şəbəkələrdə yerləşdirib.

Qeyd edək ki, Samir Qəhrəmanov və işçiləri məsuliyyətdən yayınmaq üçün avtomobillə obyektin qarşısında dayanan müştərilərə elə nəqliyyat vasitəsinin salonunda xidmət göstəriblər. Bunun üçün S.Qəhrəmanov avtomobilin salonunda spirtli içkilər və yeməklər qoymaq üçün xüsusi qablar da düzəltdirib. Obyektə və oranın mətbəxinə baxış zamanı yeməklərin adi sanitar-gigiyenik qaydalara belə əməl olunmadan hazırlandığı ortaya çıxıb. Tədbir zamanı obyektin ümumilikdə 11 işçisi və yeddi müştərisi saxlanaraq polis idarəsinə gətiriliblər. Xüsusi karantin qaydalarını pozan Samir Qəhrəmanov və restoranın əməkdaşı Azad Böyükkişiyev rayon məhkəməsinin qərarı ilə müvafiq olaraq 10 və 30 sutka inzibati qaydada həbs edilib. Qeyd edək ki, araşdırma zamanı A.Böyükkişiyevin narkotik vasitə aludəçisi olduğu da məlum olub. Müştərilər və obyektin digər əməkdaşları barəsində Polis İdarəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə tədbir görülərək onların hər biri 100 manat məbləğində cərimə olunublar.

### "BP" şirkətində azərbaycanlılara yüksək vəzifə verildi



**■ Daha iki azərbaycanlıya "bp" şirkətində yüksək vəzifə həvalə olundu.** Hafta.az-ın yazdığına görə, "bp" şirkətinin qlobal strukturunda etdiyi dəyişikliklərin bir hissəsi olaraq bir sıra yüksək vəzifəli azərbaycanlı kadrlar şirkətdə yeni daha böyük vəzifələrə təyin olunublar. Bunlardan hazırda şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda insan resursları üzrə vitse-prezidenti olan Nərminə Nəbiyeva bu ilin 1 iyul tarixindən "bp"nin London ofisində dəstək funksiyaları, strategiya və davamlılıq, regionlar, şəhərlər və həllər bölümlərinin insanlar və korporativ mədəniyyət üzrə baş vitse-prezidenti (senior vice president enablers, strategy & sustainability, regions, cities & solutions) vəzifəsinə təyin olunub. Eyni zamanda hazırda regionun əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli 1 iyul tarixindən daha geniş coğrafiyada kommunikasiya və təşviqat üzrə məsələlərə rəhbərlik edəcək. Bəxtiyar Aslanbəylinin yeni vəzifəsi Yaxın Şərq və Xəzər ölkələrində kommunikasiya və təşviqat üzrə vitse-prezidentdir (vice president communications & advocacy for Middle East & Caspian). Bu ölkələrə Azərbaycan, Gürcüstan, Türkiyə, İraq, Oman, Küveyt və BƏƏ daxildir. Bpnin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz hər iki mütəxəssis haqqında yüksək fikirdə olduqlarını deyib: "Nərminə və Bəxtiyar bizim regionun rəhbər komandasında biznesimizin uğuruna böyük töhfələr vermiş yüksək vəzifəli kadrlardır. Biz onları yeni daha məsuliyyətli vəzifələrdə görməkdən çox məmnunuq. Bu bir daha onu göstərir ki, Azərbaycanlı peşəkarlara qlobal şirkətlərdə beynəlxalq səviyyəli kadrlar kimi tələbat var. Hər iki həmkarımıza bp-dəki yeni vəzifələrində uğurlar arzulayırıq.

### Masallıda sürücü avtomobildə diri-diri yandı



**■ Daxili İşlər Nazirliyi (DİN) Masallıda baş verən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yaydı.** Hafta.az xəbər verir ki, Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, mayın 14-də saat 19 radələrində Masallı rayonunun Həsənli kəndi ərazisində kənd sakini İsa Soltanovun idarə etdiyi "ZİL" və Yardımlı rayon sakini Ü.Əbişovun idarə etdiyi "KamAZ" markalı avtomobillər toqquşduqdan sonra "ZİL" markalı avtomobilə yanğın baş verib. Nəticədə yanıq xəsarəti almış sürücü hadisə yerində ölüb. Masallı Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

### Kürdəmirdə qayınanası ilə mübahisə edən kişi özünü yandırdı



**■ Kürdəmirdə intihara cəhd hadisəsi baş verdi. Hafta.az xəbər verir ki, hadisə rayonun məcburi köçkünlərin məskunlaşdığı yaşayış məntəqəsində qeydə alınıb.** Belə ki, 37 yaşlı Cəbrayıl rayon sakini Baxışov Anar Qurban oğlu qayınanası, Kürdəmir rayon Ərşəli kənd sakini İsgəndərova Şəlalə Dostumalı qızı ilə mübahisə edib. Bu zaman Anar Baxışov qəsd məqsədilə üzərinə benzin tökərək özünü yandırıb. O, ətrafdakı insanların köməyi ilə Kürdəmir rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Həkimlər A.Baxışova bədənin çoxsaylı termiki yanığı diaqnozu qoyublar. Onun vəziyyətinin ağır olduğu bildirilir. Faktla bağlı araşdırma aparılır.

### "Azərpoçt"da 45 min manat yoxa çıxdı

**■ Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə məxsus "Azərpoçt" MMC-də oğurluq hadisəsi baş verdi. Hafta.az yazır ki, şirkətin Qaradağ rayonu, Ələt qəsəbəsində yerləşən 81 saylı poçtunda qeydə alınıb.**

Belə ki, poçtda daxili yoxlama aparılan zaman 16 min ABŞ dolları (27 200 manat) və 28 min manat vəsaitin naməlum şəraitdə oğurlandığı məlum olub. a sonra "Azərpoçt" bu barədə hüquq-mühafizə orqanlarına müraciət edib. Faktla bağlı araşdırmalar aparılır.

*✍ Sultan Laçın*

# Restoranların bağlı qalması ətə olan tələbatı azaldıb

***Pandemiya ilə əlaqədar ölkədə heyvan bazarında da satış zəifləyib. Belə ki, fermer öz mal-qarasını satış üçün çıxarsa, qiymətlər qaneedici səviyyədə deyil. Yerli bazarlarda satışın belə azalmasına səbəb isə restoran-kafelərin az işlək olması səbəbindən ətə olan tələbatın azalmasıdır.***



Aldığımız məlumatlara görə, cənub rayonlarında həm xırdabuynuzlu, həm də iribuynuzlu heyvanları satmaq mümkün deyil. Alıcılar bildirirlər ki, aldıqları heyvanları bazarda sata bilmirlər. Heyvan təsərrüfatı ilə məşğul olanlara təklif etdikləri qiymət fermerləri qane etmir.

Xırdabuynuzlu heyvanları alıb-satan Yardımlı rayon sakini Vasif bəy deyir ki, aldıqları heyvanları Masallı bazarında satır: "Əvvəllər aldığımız heyvanları aparıb orada satırdıq. Karantinə qədər 15 kq çəkidə olan qoyunu 150-180 manata satırdıqsa, indi ümumiyyətlə, bazara yaxınlaşan olmur. Biz rayonda heyvana 120-130 manat təklif edəndə, sahibkarlar da bu qiymətə satmaq istəmirlər. Əvvəlki qiymətlə almaq bizə sərf etmir".

Mal-qara satıb dolanan rayon sakinləri hazırda heyvanlarını sata bilmirlər. Satsalar belə ucuz qiymətə satırlar.

Xatırladaq ki, cənub rayonlarında və muğan zonasında 15 kq qoyunu 150 manata satmaq mümkün deyil. Alıcılar bu çəkidə olan heyvanlara 110-120 manat təklif edirlər.

Hazırda bazarlarda qoyun ətinin bir kiloqramı 10-11 manat, mal ətinin 1 kq-ı isə 8 manata satılır.

Bakı şəhərində isə vəziyyət fərqlidir. "Bravo", "Araz", "Makromart" kimi supermarketlərdə qiymətlər belədir:

Qoyun əti - 12 AZN
Mal əti - 10 AZN

Supermarketlərdə sümüklü ətlə sümüksüz ətin qiymətində fərqlər olsa da, ümumi qiymətlər dəyişməzdir. Bundan əlavə, ət kəsimi məntəqələrində ət satışı bu qiymətədir.

■ **Sallaqxanalarda ət kəsimi işinə baxan Bəhlul deyir ki, heyvanları, əsasən, Bərdədən gətirirlər. Gətirmək xərcini satıcı nəzərə almalıdır:**

"120 manata aldığımız qoyundan 50 manat qazanırıqsa, onun yarı qiymətini daşınma xərci edir. Hazırda isə rayondan da gətirmək mümkün deyil. Gətirsək də, əlimizdə qalacaq. Kəsdiyimiz heyvanları əsasən restoran-kafelərə verirdik. Pərakəndə satış elə də güclü olmur. Gün ərzində heç 50-60 kq ət satmaq olmur. Restoran sahibi isə kəsilmiş əti tam ala bilir".

■ **Digər ət kəsimi ilə məşğul olan Rəşad adlı satıcı bildirir ki, onlara rayondan heyvan göndərənlər daha göndərmirlər:** "Rayonlarda heyvan alan alverçilər aldıqları heyvanları bizə göndərirdilər. Biz də kəsib satırdıq.

Yol xərci ilə bilikdə göndərirdik. İndi isə işlər dayanıb. Bakıdakı bütün qəssabların kəsdikləri heyvanlar rayondan gəlir. İndiki vəziyyətdə bu işlə məşğul olanlar heyvanları göndərə bilmirlər".

■ **İqtisadçı ekspert Akif Nəsirli mövzu ilə bağlı hafta.az-a bildirdi ki, bu mövsüm kənd təsərrüfatı məhsulları ilə yanaşı, heyvanların satışının həyata keçirilməsi üçün də münasib zamandır:** "Yaz vaxtı kəsimlərin artması normal haldır. Karantin çətinliyi bu ayın sonuna qədər davam edəcək. Rayonlara gediş-gəliş artdıqda bu kimi problemlər öz həllini tapacaq. İribuynuzlu və xırdabuynuzlu heyvanları bazarlara daşıyan insanlara maneçilik olmamalıdır. Fermer sahibinə belə problem yaratdıqda o da əlindəkini dəyər-dəyməzinə satır. Qarşıdakı illərdə isə bu sahəyə artıq meyl etmir. Sahibkarlar özləri də aidiyyatı qrumlara müraciət etməlidirlər. Amma bildirək ki, ət bazarına işləyən sahibkar qeydiyyatdan keçməlidir. Təəssüf ki, bizdə qeydiyyatlı sahibkarlara çox az rast gəlinir. Ət alveri edən şəxs gedir Bərdə, Beyləqandan yığıb heyvanı gətirib satır. Ordan sahibkardan müəyyən qiymətə alıb, gətirir bir az da üstünə qiymət qoyub satır. Burada sahibkarı da düşünmək lazımdır. Heyvan alıb-satan adam da kəndliyə güzəştə getməlidir, amma gedə bilmir. Daşınma xərcləri və s. var. Bu proses belə davam etməli deyil. Sistemli şərait yaradılmalıdır".

✍ *Ruzbeh*

# Azərbaycanın öhdəliklərinin icrası üçün bütün imkanlar səfərbər edilib

**Azərbaycan "Əməkdaşlıq Bəyannaməsi" iştirakçılarının qlobal neft bazarında sabitliyin və balansın bərpasının sürətləndirilməsi ilə bağlı səylərini təqdir edir və bu prosesə öz zəruri dəstəyini verir.**

Energetika Nazirliyindən hafta.az-a bildirilib ki, bu sözləri nazir Pərviz Şahbazov deyib. O bildirib ki, aprel ayında əldə edilmiş tarixi razılaşmanın yerinə yetirilməsi də OPEC və qeyri-OPEC ölkələrindən yüksək həssaslıq və qəti addımlar tələb edir:

"May ayında neft bazarında müşahidə olunan müsbət meyillərdə, şübhəsiz ki, "OPEC+" ölkələrinin hasilatı azaltması ilə bağlı tədbirlərinin rolu var. "OPEC+" üzvlərinin öhdəliklərinə sadiqlik, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Küveytin isə hasilatlarını əlavə həcmlərdə azaltmaqla bağlı mövqeləri neft bazarının tənzimlənməsi üçün həlledici əhəmiyyətə malikdir".

Dünya neft bazarının sabitləşdirilməsi məqsədilə ilk dəfə olaraq böyük həcmlərdə öhdəliklər götürmüş Azərbaycan kvotasına uyğun olaraq mayın 1-dən gündəlik neft hasilatını azaldır.

"Azərbaycan xarici və yerli neft istehsalçılarının bu prosesdə bərabər şərtlər çərçivəsində iştirakına nail olaraq, neft sektorunun bütün imkanlarını öhdəliklərinin icrasına yönəldib. May ayının birinci ongünlüyündə Azərbaycanın öhdəliyinin icra səviyyəsi 98 faizdir. May-iyun aylarında gündəlik hasilatın 164 min barrel azaldılması üçün bütün zəruri tədbirləri görməklə neft bazarına töhfə vermək əsas hədəflərimizdəndir", - deyə nazir bildirib.



Pərviz Şahbazov,
Energetika naziri

2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barrel olan Azərbaycan yeni razılaşma çərçivəsində hasilatı may-iyun aylarında həmin səviyyədən 164 min barrel azaltmalıdır. Bu müddət ərzində Azərbaycan gündəlik xam neft hasilatını 554 min barrel həcmində saxlamalıdır.

Azərbaycanın öhdəlikləri iyul-dekabr aylarında 131 min barrel, 2021-ci il və 2022-ci ilin aprel ayı ərzində isə 98 min barrel müəyyənləşib. Kvotalara müvafiq olaraq ölkəmizdə gündəlik xam neft hasilatının həcmi iyulun 1-dən ilin sonunadək 587 min barreli, 2021-ci ilin yanvar-2022-ci ilin aprelində isə 620 min barreli keçməməlidir.

✍ *Hafta.az*

# "Koronavirusdan ölənlərin 95 faizinin yaşı 60-dan yuxarıdır"

**BMT Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə ofisinin rəhbəri Alanna Armitaj 15 may - Beynəlxalq Ailə Günü münasibətilə pandemiya dövründə yaşlıların hüquqlarının və rifahının qorunması mövzusuna həsr edilmiş müraciətlə çıxış edib. BMT Əhali Fondunun Azərbaycan nümayəndəliyindən Hafta.az-a verilən məlumata görə, müraciətdə deyilir ki, pandemiya şəraitində yaşlı insanların hüquqları və rifahı qorunmalıdır.**



"Avropanın hər yerində, İspaniyadan Serbiyayadək yaşlı insanlar üçün qayğı evləri COVID-19 infeksiyasının tüğyan etdiyi qaynar nöqtələrə çevrilib. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, Avropada koronavirus xəstəliyindən ölüm hallarının yarısı məhz uzunmüddətli qayğı müəssisələrinin sakinlərinin payına düşür. Virusun bütün dünyada həyatları necə məhv etdiyini göstərən ürəkdağlayan statistik göstəricilər arasında bu, olduqca mühüm bir rəqəmdir. Bu rəqəm gözlərimiz önündə baş verən, təsəvvürə sığmayacaq və eyni zamanda istisnasız olaraq hərəni diqqətini hələ lazımi səviyyədə cəlb edə bilməmiş bir faciəyə işıq salır. Yaşlı insanlar pandemiyanın özü ilə gətirdiyi fəsadlara daha çox məruz qalır. Onların koronavirusun səbəb ola biləcəyi ağırgedişatlı xəstəliyə tutulma riski daha yüksəkdir və bu xəstəlikdən ölüm hallarının təqribən 95 faizi 60 yaşdan yuxarı yaşlı insanlar arasında qeydə alınır. Koronavirus pandemiyasının özü ilə dünyanın yaşlı əhalisinin böyük hissəsinin yaşadığı Avropaya gətirdiyi məşum fəsadların səbəblərindən biri də məhz bununla bağlıdır. Mövcud şəraitdə yaşlı insanlar yalnız sağlamlıq riskləri ilə üzləşmirlər: virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən sosial təcrid tədbirləri də onların həyat və güzəranına qeyri-mütənasib təsir göstərir; belə ki, onlar etibar etdikləri və asılı olduqları bir sıra dəstək və qayğı xidmətlərindən də məhrum duruma düşürlər" deyilən müraciətdə, xanım Armitaj əlavə edir ki, qocalar evində yaşayan yaşlı insanlar həssas təbəqəyə aid olan əhali qrupuna daxildir. Onun fikrincə, vaxtlar pandemiya üzündən həddən artıq yüklənmiş sosial xidmət təminatçıları tərəfindən göstərilə bilən minimal qayğının əhatəsində və çox vaxt ətrafında sevdikləri belə olmadan dünyasını dəyişən insanların ürəkağrıdan hekayələri eşidilir.

"Eyni zamanda, bu ağır günlərdə bir çox yaşlı insanlar laqeydlik, yoxsulluq və sosial kənarlaşma şəraitində yaşamağa məcburdur və yəqin ki, bundan daha da məyusedicisi əksər hallarda onlara qarşı lazımsız bir yükə çevrilmələri ilə bağlı mənfi və həqiqətdən uzaq olan stereotip münasibətin təzahürü olardı. Hazırda Avropa ölkələrinin əhalisi sürətlə qocaldığından - artıq hər dörd nəfərdən birinin yaşı 60 və daha çoxdur - oradakı cəmiyyətlər yaşlanan insanların sağlam olması və öz icmaları daxilində fəal həyat tərzi keçirə bilmələri istiqamətində səylər göstərir. Ümid edirəm ki, bu böhran və onun gətirdiyi fəsadlar cəmiyyətlərin yaşlı insanlara qarşı mövqeyində və davranışlarında olan mənfi ünsürlərin aradan qaldırılmasında dönüş nöqtəsi olacaq. Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu olaraq biz hökumətlər və vətəndaş cəmiyyətindəki tərəfdaşlarımızla pandemiya zamanı yaşlı insanlara dəstək olmaq üçün çalışırıq və bu, həm yaşlıların hüquqlarının qorunmasını, həm də onların yaşadıqları cəmiyyətlərə inklüzivliyinin təmin olunmasını ehtiva edir", - müraciətdə vurğulanır.

Xanım Armitaj hökumətlərin ata biləcəyi 4 addımdan da bəhs edir. Bunlar aşağıdakılardır:

1. COVID-19-la mübarizədə yaşlı insanların müdafiəsi ilə bağlı tədbirləri prioritetləşdirmək. Buraya cəmiyyətə yaşlı insanların bərabər hüquq və imkanlara malik olmasını ehtiva edən mesajların ötürülməsini və bu yöndə öhdəliklərin sadəcə sözlərdən ibarət olmamasını bildirən qətiyyətli və cəsarətli mövqenin nümayiş etdirilməsini aid etmək olar. Xidmətlərin davamlılığının təmin edilməsi, qayğı göstərənlərə dəstək, təcrid vəziyyətində olan insanlara çatmaq üçün rəqəmsal texnologiyalardan istifadə böhranın təsirlərinin azaldılması istiqamətində atıla biləcək addımlardan sadəcə bir neçəsi ola bilər.

2. Yaşlı insanların səsini dinləmək. Böhranla mübarizə aparırkən və gələcək üçün siyasi çərçivələr hazırlayarkən, biz həm də yaşlı insanların söylədiklərinə qulaq verməliyik. Hər hansı qərəzli yanaşmadan yayınmaq və həqiqi ehtiyaclara cavab verən həll yolları ərsəyə gətirmək üçün icma nümayəndələri ilə ünsiyyət olduqca mühüm əhəmiyyət daşıyır.

3. İctimai fikir və təcrübədə yaşa görə ayrı-seçkilik fenomeni ilə mübarizə. Hazırkı böhran dövründə daha da bariz şəkildə özünü göstərən yaşa görə ayrı-seçkilik və yaşlanma ilə bağlı arzuolunmaz stereotiplər cəmiyyətdə heç bir vəchlə qəbul edilməməlidir. İctimai rəydə nəsillərarası bağlılığa və yaşlı insanların verdiyi dəyərli töhfələrə söykənən ümumi dəst-xəttin təşviqi sosial norma və münasibətlərin dəyişdirilməsi üçün əsas ola bilər.

4. Qanunverici və hüquqi çərçivələrə yaşlanma prizmasından yenidən baxış. Artıq hökumətlər üçün böhrandan sonrakı dövrə baxmağın və yaşlanan əhalinin hüquqlarını və rifahını təmin edərkən sürətli demoqrafik dəyişikliklərin nəticələri ilə ayaqlaşa bilmək üçün səhiyyə, təhsil, məşğulluq və sosial rifah kimi sahələrdə zəruri olan təkmilləşdirmələri nəzərdən keçirməyin zamanı yetişib.

Nümayəndəliyin rəhbəri sonda bildirib ki, özümüzlə səmimi olaraq razılaşmalıyıq ki, dünyanın müxtəlif yerlərində bu qədər yaşlı insanın koronavirus böhranının qurbanına çevrilməsi qaçılmaz deyildi. "Bu, yaşadığımız cəmiyyətlərin, təmsil etdiyimiz təsisatların və mədəniyyətlərin yaşlı nəsillərin rifahı məsələsinə eyni dəyəri verməməsinin təzahürü idi.

Biz öz səhvlərimizdən nəticə çıxarmalı və yaşlı insanların da hüquqlarının tanındığı və dəstəkləndiyi bütün yaşlar üçün cəmiyyəti qurmalıyıq. Bu gün sürətlə yaşlanan Avropa əhalisinin dörddəbirinin sahib olduğu bütün bilikləri, təcrübəsi və indən belə verə biləcəyi töhfələrlə birlikdə kənarda qalmasına yol verməli olmaz. Yaşlıların bütün digər insanlarla bərabər hüquq və seçimlərə malik olmasını təmin etmək, sadəcə, mənəvi öhdəlik deyil, bütün nəsillərin rifahı baxımından əhəmiyyət kəsb edən mühüm çağırışdır", - xanım Alanna Armitaj söyləyir.

✍ *Vüsal*

BÖLGƏ

# GƏNCƏDƏ xüsusi karantin rejimi qaydalarının icrasına ciddi nəzarət olunur

**Gəncədə xüsusi karantin rejimi ilə bağlı reydlər davam etdirilir. Gəncə Şəhər İcra Hakimiyyətinin səlahiyyətli nümayəndələrinin və Gəncə Baş Polis İdarəsi əməkdaşlarının iştirakı ilə keçirilən reydlər zamanı sakinlərlə maarifləndirici söhbətlər aparılır, tibbi maskalar paylanılır, xüsusi karantin rejimi qaydalarını pozanlar barəsində isə qanunamüvafiq qaydada tədbir görülür.**



Növbəti belə reyd Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi Əkbər İsmayılovun iştirakı ilə baş tutub. Onlar şəhərdə fəaliyyət göstərən iri market və mağazalarda, geyim dükanları və apteklərdə, o cümlədən ictimai nəqliyyatda xüsusi karantin rejiminin tələblərinə hansı səviyyədə əməl edildiyi ilə yerində tanış olublar. Xüsusi karantin rejimi tələblərinin icrasına nəzarətin gücləndirilməsi nəticə verməkdədir. Belə ki, xidmət sahələrinin işçiləri fəaliyyətlərini tibbi maska və əlcəkdə davam etdirirlər. Sərnişindaşıma ilə məşğul olan ictimai nəqliyyat vasitələrinin hamısına isə xüsusi qabda dezinfeksiyaedici məhlullar yerləşdirilib. Gəncənin apteklərində də yetərli sayta tibbi maska, əlcək və spirt mövcuddur. Bank və ATM-lərin qarşısında növbə gözləyən sakinlər arasında sosial məsafənin qorunmasına da diqqət yetirilir. Şəhər sakinləri arasında tibbi maskadan istifadə edənlərin sayı da nəzərə çarpacaq dərəcədə artıb. Reyd zamanı sakinlərlə maarifləndirici söhbətlər də aparılıb.

COVİD-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması üçün xüsusi karantin rejiminin tələblərinə və sosial izolyasiya qaydalarına əməl edilməsinin önəmi bir daha xatırladılıb. Söhbət zamanı bəzi sakinlər öz sosial problemlərini də dilə gətiriblər. Niyazi Bayramov müraciətlərin araşdırılaraq, dərhal həll edilməsi istiqamətində tapşırıq verib. Reyd zamanı xüsusi karantin rejimi qaydalarını pozan sakinlər barəsində qanunamüvafiq formada tədbir görülüb. Qeyd edək ki, Gəncə Şəhər İcra Hakimiyyətinin nəzdində yaradılan mobil qrupların üzvlərinin də aktiv şəkildə iştirak etdiyi reyd və maarifləndirici tədbirlə davam etdiriləcək.

# Astarada sənaye məhsullarının istehsalı 33,9 faiz artıb

**Astara rayonunun sənayesinin əsasını qida məhsulları istehsalı, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri təşkil edir.**



Bu ilin üç ayında rayonda fəaliyyət göstərən sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 33,9 faiz artaraq 5353,5 min manat təşkil edib.

Bu barədə Astara Rayon Statistika İdarəsindən məlumat verilib. Qeyd olunub ki, sənaye məhsulunun 21,5 faizi emal, 77,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Bu müddətdə sənayedə qeyri-dövlət sektorunun payı 21,5 faiz olub. Ümumi istehsalın 83,0 faizi sənaye məhsulunun istehsalı, 17,0 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb. İstehlakçılara 5210,1 min manatlıq məhsul göndərilib və sənaye xidmətləri göstərilib. Əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 203,2 min manatlıq hazır məhsul olub. Emal sənayesində 1148,4 min manatlıq məhsul istehsal olunub və əhaliyə sənaye xarakterli xidmətlər göstərilib.

Diqqətə çatdırılıb ki, sənayedə çalışan muzdlu işçilərin orta siyahı sayı 470 nəfər təşkil edib. Onlardan 99 nəfəri emal, 265 nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 106 nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində çalışıb. Sənayedə işləyənlərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,4 faiz artaraq 478,8 manata çatıb.

# Pandemiya səbəbindən dünya iqtisadiyyatı 8,8 trilyon dollar itirə bilər



**Bu il koronavirus pandemiyası səbəbindən dünya iqtisadiyyatı 5,8 trilyon dollardan 8,8 trilyon dollara qədər itkiyə məruz qala bilər.**

Bu proqnoz mənzil-qərargahı Manilada yerləşən Asiya İnkişaf Bankının məruzəsində öz əksini tapıb.

"Yeni koronavirus infeksiyasının səbəb olduğu COVID-19 pandemiyası nəticəsində dünya iqtisadiyyatı 5,8 trilyon dollardan 8,8 trilyon dollara qədər itkiyə məruz qala bilər ki, bu da qlobal ümumdaxili məhsulun 6,4-9,7 faizinə bərabərdir", - deyə sənəddə bildirilir. Bank ekspertlərinin sözlərinə görə, hesablanan 8,8 trilyon dollarlıq itkilər pandemiya ilə uzun müddətli mübarizə və məhdudiyyətlərin yarımil saxlanılması ssenarisinə əsaslanır. İqtisadi aktivlik üç ay ərzində bərpa olunsa, itkilər 5,8 trilyon dollar təşkil edəcək.

Asiya-Sakit Okean regionunun iqtisadi itkiləri 1,7 trilyon dollardan (üç aylıq ssenari zamanı) 2,5 trilyon dollara (yarımillik dövr) qədər dəyişə bilər. Asiya İnkişaf Bankı bundan öncə aprelin 3-də dərc etdiyi məruzəsində pandemiya səbəbindən dünya iqtisadiyyatının zərərlərini 2 trilyon dollardan 4,1 trilyon dollara qədər proqnozlaşdırmışdı.

# İqlim dəyişikliyi ilə mübarizə niyə ciddi nəticə vermir?

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ekologiya və ətraf mühitin mühafizəsi

## Ekspertlər hesab edirlər ki, iqlimin stabil saxlanılması planetin hər bir sakinindən asılıdır

***Hər il mayın 15-i dünyada Beynəlxalq İqlim Günü kimi qeyd edilir. Bu günün qeyd edilməsində əsas məqsəd cəmiyyətin diqqətini indiki və gələcək nəsillərin rifahına təsir edən və əhəmiyyətli resurs olan iqlimin müdafiəsinə yönəltməkdir. Qeyd edək ki, iqlimin qorunması hazırda bəşəriyyət qarşısında duran qlobal problemlərdən biridir. Qlobal istiləşmə, atmosfer qatında artan ozonun miqdarı, təbii fəlakətlər, planetin hava şəraitinin dəyişməsi - bunlar hamısı Yer kürəsinin iqliminin pisləşməsinə səbəb olur. Nəticədə insanların ərzaq, həyati və mülki təhlükəsizliyi sual altında qalır, təbii resursların vəziyyətinə və dövlətlərin dayanıqlı inkişafına mənfi təsir göstərir.***



Müasir elm Yer kürəsinin temperaturunda daha çox artım olacağı halda faciəli iqlim dəyişikliyinin nə qədər tez bir zamanda baş verəcəyi sualına cavab tapa bilmir. Ancaq ekoloq və meteoroloqların fikrincə, bu dəyişikliyi başəriyyətin gücü ilə təxirə salmaq lazımdır. Dünyada və Azərbaycanda havanın orta temperaturu artmaqda davam edir. İqlim dəyişməsinə təbii və antropogen amillər təsir göstərir. Təbii amillərə Günəşin aktivliyi, Yerin oxunun Günəşə nisbətən 15 dərəcə dəyişməsi və vulkan püskürməsini misal göstərmək olar. Antropogen amillər isə ümumi təsirin beşdə dörd hissəsini təşkil edir və bu sahədə istixana effekti qazları əsas yer tutur.

İstilik artımı dünyada müxtəlif cür paylanıb. Məsələn, Azərbaycanda elə ərazilər var ki, son illər havanın orta temperaturu 0,4 dərəcə artıb. Böyük Qafqazın yüksək dağlıq ərazilərində isə orta temperaturun 1,1-1,4 dərəcə yüksəlməsi müşahidə olunub.

Yer kürəsinin iqliminin stabil saxlanılması planetin hər bir sakinindən asılıdır. Avtomobildən çox istifadə etməməklə, mənzillərdə işıqlandırma məqsədilə enerjiyə qənaət edən mənbələrdən istifadə ilə, ağac əkinlərinə və yaşıllıqların müdafiəsi aksiyalarına qoşulmaqla iqlimin qorunmasında pay sahibi olmaq olar. Hər kəsə kiçik görünən bu əməllər əslində Yer kürəsi üçün böyük mənanı ifadə edir. Bu baxımdan da, hazırda iqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Anomal hava şəraiti tək Azərbaycanda deyil dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər qrupunun son qiymətləndirmə hesabatına görə son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması isə əsasən antropogen amillərlə bağlıdır. Antropogen amillərin də əsası istilik effekti yaradan qazlar: karbon, metan, azot oksidi, azot 1 oksid və xlor-flüor birləşmələridir. Son 100 illik kosmik müşahidələr göstərir ki, tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq qızma 2000 metr dərinliyə qədər çatır. Bu da isti axınların daha da qızmasına səbəb olur. Yəni bütün bu təbii fəlakətlərin artımında əsas amil iqlim dəyişmələridir.

Təbii ki, son illər Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmayıb. Məsələn, temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son 10 illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artıb. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti iqlim dəyişmələri üzrə milli səviyyədə fəaliyyətləri daha da genişləndirib. Belə ki, Azərbaycan Respublikası Milli Məclisi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub. Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Əlavə 1 qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yeniləndirilməsi, milli məlumatların hazırlanması kimi öhdəliklər götürmüş və bu öhdəlikləri sistemli şəkildə yerinə yetirilmişdir. Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini 22 aprel 2016-cı ildə imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya edib. Bundan başqa, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına özünün Nəzərdə Tutulan Milli səviyyədə müəyyən edilmiş Töhfələrində qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürüb və hazırda həmin tullantıların azaldılması üçün müvafiq layihələrin reallaşdırılması davam etdirilir. Belə ki, ölkədə bərpa olunan enerjidən istifadənin genişləndiyi, karbonun udulması üzrə yeni meşə massivlərinin salındığı, Günəş elektrik stansiyaları üçün panelləri istehsal edən zavodun fəaliyyətə başladığı və elektrik stansiyalarında mazutdan istifadənin dayandırılması nəticəsində 1990-cı ildən indiyə qədər təxminən 600 milyon ton karbon tullantısı azaldılmışdır. Bütün bu tədbirlər Azərbaycan dövlətinin maliyyə vəsaiti hesabına həyata keçirilir.

Yeri gəlmişkən, ABŞ-ın Atmosfer Tədqiqatları Milli İdarəsinin hesabatında da deyilir ki, dünyanın 48 ölkəsindən olan 300-dən artıq alim qlobal istiləşmənin qaçılmaz olduğuna əmindir. Sənəddə qlobal istiləşmənin səbəbləri göstərilmir. Lakin bildirilir ki, qarşıdakı illərdə bütün dünyada hərarətin yüksəlməsi və buzlaqların əriməsi prosesi davam edəcək. Ekoloqların fikrinə görə, əgər dünya birliyi qlobal istiləşmə ilə bağlı vaxtında qabaqlayıcı tədbirlər görməsə, qarşıdakı onilliklər ərzində bəşəriyyət iqlim dəyişikliyinin fəlakətli nəticələri ilə üzləşəcək. Mütəxəssislər hesab edirlər ki, hazırda əhalinin sürətlə artması və elmi texnikanın inkişafı nəticəsində atmosferə buraxılan qazların miqdarı çoxalıb. Aramid effekti yarandığı üçün də qlobal istiləşməyə təsir edir. Amma çox təəssüflər olsun ki, bəzi ölkələr həmin konvensiyanın müddəalarına əməl etmir. Ekspertlərin fikrincə, xüsusilə ABŞ və inkişaf etmiş digər kapitalist ölkələri atmosferin çirklənməsinin qarşısını almaq üçün ərazilərindəki bəzi sənaye obyektlərini bağlamalı və ya müasir texnologiyalardan istifadə etməklə qlobal istiləşmənin qarşısını almalıdırlar. İstiləşmənin qarşısını almaq üçün ilk növbədə atmosferi çirkləndirən qazların miqdarı azaldılmalıdır. Bu istiqamətdə görülən tədbirlər az effekt verdiyi üçün qlobal istiləşmə hazırda ən böyük problemlərdən birinə çevrilib. Alimlərin fikrincə, dünya miqyasında bir azdan soyuqlaşma prosesi başlayacaq. Yəni iqlim dəyişiklikləri ilə əlaqədar olaraq təxminən 15-20 il sonra soyuqlaşma müşahidə edilə bilər. Hazırda alimlər qlobal istiləşmənin nələrə səbəb olacağını müəyyənləşdirməyə çalışırlar. İngiltərənin "EDDI" Mərkəzi dünyanın xəritəsini hazırlayıb. Orada Yer kürəsində temperatur 2 dərəcə artarsa, harada nələrin baş verəcəyi təsvir olunub. Xəritədə əsas təhlükəli ərazilər kimi Qərbi Avropa, Hind-Çin yarımadası, Cənubi Afrika və Amerika, Şimali Amerikanın sahil zonaları, ada əraziləri və Avstraliya göstərilib.

■ **Məsələyə münasibət bildirən Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov deyib ki, dünyada iqlim dəyişikliyi hər 40-50 ildən bir özünü göstərir: "Azərbaycan dövləti öz daxilində iqlim dəyişiklikləri ilə mübarizə aparmalıdır.** Bu, müəyyən proqram, plan əsasında həyata keçirilə bilər. Yaşıllıqlar artırılmalıdır, su kanalları çəkilməlidir ki, torpaqlar erroziyaya məruz qalmasın. Buxarlanma minimuma endirilməli, torpaqların münbitliyi qorunmalı, torpaqlardan düzgün istifadə edilməli və tullantılar düzgün idarə edilməlidir. Düzdür, ölkəmizdə son illərdə yaşıllıqların sayının artırılmasına xüsusi fikir verilir. Bu tədbirlər iqlim dəyişikliklərinə qarşı mübarizənin göstəricisidir. Amma təəssüf ki, bəzi böyük dövlətlərin istifadə etdiyi bioloji silahlar iqlim dəyişikliyini sürətləndirməkdə davam edir".

*✍ Sevinc*

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Koronavirusun orqanizmdə qalıb yenidən...

**Koronaviruslar mövsümi xəstəliklər kimi qəbul olunur, lakin COVID-19 meydana çıxandan sonra onun müxtəlif yoluxma yolları da aşkarlandı. Havaların isinməsi ilə əlaqədar olaraq bizdə də onun məhv olacağına müəyyən ümidlər var, çünki viruslar isti temperatura qarşı davamsızdırlar.**



Lakin bununla belə əgər bu virus isti temperaturda da qalıb gələn mövsümə keçirsə, onun yoluxma ehtimalı həmişə var. Havaların istiləşməsinə o qədər də ümidli olmaq lazım deyil, çünki isti ölkələrdə də bu xəstəlik var və yayılır. Ona görə də ehtiyat tədbirlərinə mütləq əməl edilməlidir. Bu sözləri Azərbaycanın baş infeksionisti Cəlal İsayev deyib.

O, xəstəliyin ikinci dalğasının baş verməsi barədə deyilənlərə münasibət bildirərək deyib: "İkinci dalğa söhbətinə o qədər də əhəmiyyət vermirəm, çünki bu virus artıq ölkəmizdə var və payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar onun yenidən baş qaldırması mümkündür. Bəzən son günlər yoluxmanın yüksəlişini ikinci dalğa hesab edirlər. Lakin bu epidemiyanın gedişi belədir, müəyyən günlər azala, müəyyən günlər arta bilər. Həm də bu, aparılan test sınaqlarının sayından da asılıdır. Ola bilər ki, 14 gün əvvəl yoluxmuş insanda həmin virus indi aşkara çıxsın. İndiki vaxtda onun güclənmək ehtimalı yoxdur, lakin payız-qış mövsümündə onun yenidən baş qaldırmaq ehtimalı çoxdur.

Günəşli havalarda ultrabənövşəyi şüalar çoxalır və həmin şüalar viruslara öldürücü təsir göstərir. Qrip və digər respirator infeksiyalar soyuq havaya dözümlü olduğuna görə payız-qış mövsümü çoxalır, yaz-yay mövsümü isə sönür. Koronavirus da həmin qəbildən olan infeksiyadır və biz buna əsasən müəyyən qənaətə gəlirik. Lakin yenə təkrar edirəm, koronavirusun orqanizmdə qalıb soyuq fəsildə yenidən fəallaşmaq ehtimalı var. Lap temperatur 50 dərəcə də olsa, təmas olduqda yoluxma davam edəcək. Ona görə də havaların istiləşməsinə arxayın olmamaq və bunu mütləq nəzərə almaq lazımdır. Digər tərəfdən, koronavirus yeni növ virusdur və onun haqqında az qala hər gün doğru və yalan bir məlumat eşidirik. Lakin bunların hamısı təhlil edilməli və araşdırılandan sonra qərar verilməlidir. Dəqiq məlumat yalnız bu araşdırmalardan sonra verilə bilər.

Baş infeksionist daha sonra deyib: "Biz heç vaxt orqanizmin gücünə arxayın olub ona yoluxmayacağımızı fikirləşməməliyik. Bu virus 85 faiz hallarda yumşaq keçir və onların əksəriyyətində də heç bir əlamət büruzə vermir. Lakin bununla belə virus yayılmaqda davam edir və belə daşıyıcılar xəstələrdən daha təhlükəlidir, çünki xəstələr izolyasiya edilərək nəzarətdə saxlanılır və onların kimisə yoluxdurmaq ehtimalı çox zəifdir. Gündəlik işə çıxan adamın başqalarını yoluxdurmaq ehtimalı isə daha yüksəkdir.

Hazırda ölkəmizdə vəziyyət nəzarət altındadır və bütün dövlət qurumları virusla əlaqədar lazımi tədbirlər görürlər. Ölkəmizdə bu sahədə görülən tədbirlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək dəyərləndirilir və dünya ölkələri tərəfindən də nümunə kimi qəbul edilir. Yaxşı haldır ki, son günlər şəhərdə maska ilə gəzənlər əvvəlki günlərlə müqayisədə çoxalıb. Vətəndaşlar bu vəzifələri yerinə yetirməkdə bizə kömək etməlidirlər və hər şey onların özündən asılıdır. Onlar karantin rejiminin tələblərinə əməl etsələr, virusun yoluxması üçün münbit şərait yaratmasalar, onda pandemiyanın qarşısını almaq mümkün olacaq".

*✍ Hafta.az*

# 8 gün qeyri-iş günü olacaq



**Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin yerinin dəyişdirilməsi və xüsusi karantin dövründə qeyri-iş günlərinin müəyyən edilməsi haqqında qərar verib.** Baş Nazir Əli Əsədov tərəfindən imzalanmış qərara əsasən, Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2020-ci ilin 27 may iş günü ilə 31 may istirahət gününün yerləri dəyişdirilir. Xüsusi karantin dövründə xüsusi iş (əmək) rejimi olaraq 2020-ci il 29 may tarixi, habelə altıgünlük iş həftəsində çalışanlar üçün 23 və 30 may tarixləri qeyri-iş günləri müəyyən edilir. Bu Qərarın müvafiq bəndində nəzərdə tutulan qeyri-iş günləri üçün işçilərin əməkhaqları saxlanılır. Xüsusi iş (əmək) rejiminin tətbiq edilməsi ilə əlaqədar 2020-ci ilin istehsalat təqvimi və iş vaxtı norması dəyişdirilmir.

*✍ Hafta.az*

# "Azercell" "Kabinetim" mobil tətbiqinin yeni versiyasını təqdim edir

**İstifadəçilərə ən yaxşı müştəri təcrübəsi bəxş etmək məqsədilə "Azercell Telekom" MMC tərəfindən işlənib hazırlanmış "Kabinetim" mobil tətbiqinin yeni versiyası abunəçilərin ixtiyarına verildi. Artıq abunəçilərin işini daha da asanlaşdıran, bəzi funksiyaları əlçatan edən yeni imkanlar vasitəsilə tətbiq daha rahat, funksional və rəqəmsal xüsusiyyətlərə malikdir.**




Belə ki, "Kabinetim" mobil tətbiqinin yeni versiyasında abunəçi istifadə etdiyi nömrənin rəsmi sahibini asanlıqla öyrənə bilər. Bunun üçün sadəcə proqramdakı kənar menyuya daxil olmaq kifayətdir. Digər yenilik "Mənim Profilim" bölməsində edilib. Bu bölmədə imza sahibinin adı və soyadı ilə yanaşı, əlavə əlaqə nömrəsi və elektron ünvanın qeyd olunması üçün imkan yaradılıb. Sözügedən hər iki funksiyadan yalnız fiziki şəxslər yararlana biləcəklər. Önəmli yeniliklərdən biri də Mobil Ödəmə sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Belə ki, fakturasız xətt istifadəçiləri artıq öz nömrəsinə aid kabinetdən digər Azercell nömrəsinə balans köçürə bilər. Bundan əlavə, yenilənmiş "Kabinetim" mobil tətbiqində "İnternet" və "Balansı artır" bölmələrindən istifadəçi təcrübəsi də təkmilləşdirilib. Qeyd edək ki, "Kabinetim" mobil tətbiqinin önəmli xüsusiyyətlərindən biri də odur ki, tətbiqdən istifadə zamanı məqabaytlar xərclənmir. Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini "App Store" və ya "Play-Store"dan yükləmək mümkündür. Tətbiq avtomatik yenilənməyibsə, yükləmə üçün <bit.ly/-Kabinetim> keçidindən istifadə etmək olar. Müasir texnologiyalar və rəqəmsal həlləri təqdim edən "Kabinetim" tətbiqi istifadəçilərə nömrə xəttini şəxsən idarə etmək, balansı nəzarətdə saxlayıb artırmaq, internet paketləri və rominq internet paketlərini aktivləşdirmək, tarif paketini dəyişmək və bir çox başqa imkanlar təqdim edir. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi üzərindən onlayn çat vasitəsilə Azercell müştəri xidmətlərinə müraciət etmək və QR skan ilə xidmətlərə qoşulmaq da mümkündür. Rəqəmsal həllərin tətbiqi yolu ilə müştəri məmnuniyyətini daha da yüksəltməyi hədəfləyən Azercell "Kabinetim" tətbiqinin funksionallığını artırmaqda davam edəcək. Odur ki, istifadəçilər mobil tətbiqlə bağlı təkliflərini digital@azercell.com elektron poçt ünvanına göndərə bilərlər.

# Koronavirusun ikinci dalğası - Azərbaycan üçün təhlükəli ola bilərmi?

◂ əvvəli 1-ci səhifədə

Bildirilib ki, yoluxma hallarının hamısı yerli sakinlər arasında aşkarlanıb (Tszilin əyalətində). Ölkənin tibb müəssisələrində 91 nəfərin müalicəsi davam etdirilir, onlardan 11-nin vəziyyəti ağır qiymətləndirilir. 78 mindən çox pasiyent sağalıb və xəstəxanalardan evə buraxılıb. Çində ümumilikdə 82 929 yoluxma, 4 633 ölüm halı qeydə alınıb, 78 195 pasiyent sağalıb və xəstəxanalardan evə buraxılıb. Maraqlıdır əgər deyildiyi kimi ikinci dalğa yayılarsa, yenidən təhlükə artarmı və Azərbaycanda qabaqcadan hansı tədbirlərə ehtiyac var?

■ **Mövzu ilə bağlı hafta.az-a danışan tibb eksperti, professor Adil Qeybulla dedi ki, ikinci dalğanın göstərilməsi sosial həyatın genişlənməsi ilə bağlıdır:**

"İnsanlar bütün nəqliyyat vasitələrindən demək olar ki, istifadə etməyə başlayıblar. Bir çox karantin rejimi elan olunmuş ölkələr karantindən çıxmağa başlayıb. Amma virus təhlükəsi tamamilə yox olmayıb. Bu baxımdan da ÜST ikinci dalğanın yayılmasını ehtimal edir. Əgər ikinci dalğa olarsa bu daha çox fəlakətə gətirib çıxara bilər. İnsan ölümləri arta bilər". A. Qeybullanın fikrincə, Azərbaycanda hazırda insanlar sosial izolyasiya qaydalarına riayət etmirlər. Əgər ikinci dalğa olarsa elə Azərbaycan üçün də ağır vəziyyət yarada bilər: "İnsanlar karantin qaydalarına əməl etməlidirlər: sosial məsafə, maska, əlcək istifadə etməlidirlər. Amma heç kim bunlara fikir vermir. İnsanlar sui-istifadə hallarına yol verirlər, təhlükəni önəmsəmirlər".

*✍ Ruzbeh*

# İlk Formula 1 yürüşü haqqında 10 maraqlı fakt

***Formula 1 yürüşünün 70 yaşı tamam olur. AZƏRTAC xəbər verir ki, çempionatın rəsmi saytı 1950-ci il mayın 13-də Silverstounda keçirilmiş ilk yürüşü xatırlayır.***



**Yürüş iki ad altında keçirilib**

İnanılmaz olsa da, faktdır: Formula 1 tarixində ilk Qran-Prinin iki statusu olub. Yürüşün rəsmi adı Avropa Qran-Prisi olub. O illərdə yürüşə belə stasus vermək normal və fəxri praktika hesab edilirdi. Lakin yürüş Böyük Britaniya ərazisində, Kral ailəsinin iştirakı ilə keçirildiyinə görə ona Böyük Britaniya Qran-Prisi adı da verilir.

**“Woodcote” Silverstoun trasında ilk döngə olub**

”Woodcote” 1952-ci ildən 2011-ci ilədək müddətdə Silverstoun yürüşünün son döngəsi hesab edilsə də, 1950-ci ildə yürüşün birinci döngəsi olub. Buna görə də bu döngəni Formula 1 tarixində ilk döngə adlandırmaq olar. ”Woodcote”ın ardınca ”Copse”, ”Maggots”, ”Becketts”, ”Chapel”, ”Stowe”, ”Club” və ”Abbey” döngələri gəlir.

**Yürüşdə Kral ailəsi iştirak edib**

Yürüş günü Silverstoun avtodromuna 120 min tamaşaçı toplaşıb. Amma ən fəxri qonaqlar Böyük Britaniya Kralı VI Georq, kraliçə Elizabet və şahzadə Marqaret idi.

**Yürüşdə Tailand şahzadəsi və İsveç baronu iştirak ediblər**

Silverstoun startındakı 21 pilot arasında Tailandın vəliəhd şahzadəsi, daha çox şahzadə Bira kimi tanınan Birabonqze Banudey Banuband və İsveç baronu Tulo de Qraffenrid kimi şəxsiyyətlər də olub.

Aleks Albona (2019-cu il) qədər Tailandın yeganə pilotu sayılan şahzədə Bira yanacaq bitdiyinə görə Silverstoun yürüşündə finişə çata bilməyib. De Qraffenridi isə mühərrik pis vəziyyətdə qoyub.

**Yürüşə üç “fa” sürət verib**

1950-ci ildə ”Alfa Romeo 158” avtomobilinin artıq 13 yaşı vardı. Bu maşın 350 at gücündə 1,5 litrlik V8 motoru sayəsində öz sinfində ən yaxşı avtomobil hesab edilirdi.

Buna görə də İtaliya markasının Luici Facioli, Cüzeppe Farina və Xuan-Manuel Fanxiodan ibarət üç ”Fa” adlandırılan pilotlar triosu öz rəqiblərinə asanlıqla qalib gəlir. Onlar təsnifatda ilk üç yeri tutur və hətta komanda yoldaşları Rec Parnelə bir saniyə qazandırırlar. İki saatdan çox sürən 70 dövrə ərzində ”Alfa Romeo”-nun üç aparıcı pilotu arasında bir neçə dəfə yerdəyişmə baş verir. Nəticədə Faciolini 2,6 saniyə qabaqlayan Farina qalib gəlir. Üçüncü Parnel finiş edir. Fanxio işlənmiş qaz borusunun sınması səbəbindən yürüşdən çıxır. Deyilənə görə, o, borunu ”Stowe” döngəsindəki küləş tayı ilə toqquşan zaman zədələyir.

**İlk yürüşdə də trasda heyvansız ötüşməyib**

Demək olar, hər bir Formula 1 mövsümündə bir və ya bir neçə trasda pilotların qarşısına gözlənilmədən yerli faunanın nümayəndələri - qunduzlar, qağayılar, bayquşlar və hətta çöl kərtənkələləri çıxır. 1950-ci ildə keçirilmiş Silverstoun yürüşü də istisna olmayıb. Burada trasa dovşan çıxıb. Manevr edə bilməyən Parnel bədbəxt heyvanı vurub. Britaniyalı finişə avtomobilinin kapotu əzilmiş halda çatıb.

**Pilotların orta yaş həddi 39 yaşdır**

Avropa/Böyük Britaniya Qran-Prisinin üç iştirakçısının yaşı 50-dən yuxarı olub: Luici Facioli 51, Lui Şiron 50, Filip Etanselen 53 yaşında olub. Beş pilotun yaşı 40-ı ötüb, o cümlədən yürüşün qalibi Cüzeppe Farina 43 yaşında olub. Yürüşün ən gənc pilotu, britaniyalı Cef Krosslinin isə 29 yaşı olub.

**Cazmen finişə 11-ci çatdı**

1950-ci ildə Silverstounda starta cazmen çıxıb və bu, zarafat deyil. Belçika pasportlu ingilis Conni Klez sonuncudan əvvəlki yerdə olan pilota bir saniyə uduzaraq finişə sonuncu gəlib. Qalibdən altı dövrə geri qalab cazmen sonuncu yerdə olsa da, halda finişə gəlib çıxa bilib.

**BRM-in uğursuz debütü**

BRM şirkətinin banisi Raymond Meysin idarə etdiyi avtomobil startqabağı bir neçə nümunəvi dövrədən sonra qırılıb. ”Type 15”in Formula 1 yürüşündə debütü bir il sonra elə Silverstounda baş tutub.

**Dəstək yürüşündə, az qala, Stirlinq Moss qalib gəlib**

”500cc” dəstək yürüşünün başlıca qəhrəmanlarından biri 20 yaşlı Stirlinq Moss idi. Gələcəkdə Formula 1 çempionu adına dəfələrlə namizəd olan bu pilot son döngəyə qədər qələbə uğrunda mübarizə aparıb, lakin onun ”Cooper-JAP” avtomobilinin mühərriki silindr sıradan çıxdığına görə son anda işləməyib. Odur ki, Moss ikinci yerlə kifayətlənməli olub.

# Koronavirus pişiklər arasında da yayılır

**Pişiklər bir-birini koronavirusa yoluxdura və infeksiya daşıyıcısı ola bilərlər. Ancaq onların koronavirusu insanlara ötürə biləcəyinə dair sübut yoxdur. Tokio Universitetinin Tibb Elmləri İnstitutu, ABŞ-ın Viskonsin Universiteti və bir sıra digər araşdırma mərkəzlərindən olan alimlər bu nəticəyə gəliblər.**



RG xəbər verir ki, tədqiqat ”New England Medicine” jurnalında dərc edilib. Araşdırma zamanı alimlər üç pişiyi koronavirusa yoluxdurub və onları sağlam pişiklər olan qəfəslərə salıblar.

Beş gündən sonra sağlam heyvanların burunlarından götürülən yaxmanın nəticələrinə əsasən, onların virus daşıyıcıları olduqları aşkarlanıb. Bu vəziyyətdə pişiklərdə hərarət, konyunktivit, çəki itkisi də daxil olmaqla, heç bir simptom müşahidə olunmayıb.

Alimlər xəbərdarlıq edir ki, pişiklərdə simptomların olmaması, onları koronavirusun potensial ”səssiz” daşıyıcısına çevirə bilər. Bununla yanaşı, mayın 1-də Yaponiyanın Baytarlıq Birliyi insanların ev heyvanlarından yoluxması ilə bağlı heç bir məlumatın olmadığını ifadə edən bəyanat yayıb. Buna görə də hazırda virusun ötürülməsinin yalnız bir istiqamətdə - insandan heyvana keçdiyi güman edilir.

Xatırladaq ki, aprelin əvvəllərində ABŞ-da zooparkda pələngin və bir şirin COVID-19-a yoluxduğu, Hindistanda virusun insanlardan heyvanlara ötürülməsi halları barədə məlumatlar yayılmışdı.

# Tokiodakı Oyunlarda tamaşaçı sayını məhdudlaşdırmaqdan danışmaq tezdir

**“Tokiodakı Olimpiya Oyunlarını təhlükəsiz şəraitdə keçirmək çox vacibdir. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri vacib rol oynayır”. Bunu Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax deyib.**



O, koronavirus pandemiyası üzündən 2021-ci ilə təxirə salınan Tokio-2020 Yay Olimpiya Oyunlarının tamaşaçısız və ya müəyyən məhdudiyyətlə keçirilmə ehtimalına münasibət bildirib: “Tamaşaçıların sayını azaldıb-azaltmayacağımız hər şeyin bir ildən sonra necə olmasından asılıdır. İndi Tokiodakı Oyunlarda tamaşaçı sayını məhdudlaşdırmaqdan danışmaq tezdir”.

# Bundesliqa beş əvəzetməni təsdiqləyib

**Almaniya Futbol Federasiyası (DFB) klubların rəhbərliyi və assosiasiya nümayəndələri ilə keçirdiyi videokonfransda bir sıra qərarlar qəbul edib.**



Mühüm qərarlardan biri əvəzetmələr ilə bağlı olub. Beləliklə, Birinci və İkinci divizionlarda keçirilən oyunlarda beş əvəzetmə olacaq. Bu qərar iki ay fasilədən sonra futbolçuların zədələnməsi riskini azaltmağa imkan yaradacaq.

Həmçinin iclasda mövsümün tamamlanmaması qərara alınarsa və mövsüm yenidən dayandırılarsa, turnir cədvəlindəki yerlərin bölüşdürülməsi barədə qərar iki həftə ərzində veriləcək. Bundan əlavə, lazım gələrsə komandalar digər stadionlarda oyun keçirə bilərlər. Qeyd edək ki, mayın 16-da “Borussiya Dortmund” “Şalke” komandası ilə üz-üzə gələcək. “Leyptsiq” isə doğma meydanda “Frayburq” komandasını qəbul edəcək. Turnir cədvəlinin lideri “Bavariya” isə səfərdə “Union Berlin” klubunun qonağı olacaq. Bundesliqa martın 13-də koronavirus pandemiyası səbəbindən dayandırılmışdı.

# İtaliya A seriyası iyunun 13-də bərpa olunacaq

**Avropa ölkələrində futbol üzrə milli çempionatların bərpa tarixləri bir-birinin ardınca açıqlanır. Bununla bağlı növbəti rəsmi xəbər A seriyasına aiddir.**

Pandemiyadan ən çox əziyyət çəkən ölkələrdən biri İtaliyanın da futbol həyatı tədricən canlanmağa başlayır. İtaliya Futbol Federasiyasının rəhbərliyi “A” seriyasında yarışların bərpa tarixini açıqlayıb. Uzun sürən müzakirələrdən sonra çempionatın iyunun 13-də qaldığı yerdən davam etdiriləcəyi bildirilib. Ölkədə mayın 4-dən fərdi qaydada məşqlərə icazə verilmişdi. Mayın 18-dən isə qrup şəklində hazırlıq mərhələsi başlanacaq. Komandalar oyunlara hazırlaşsalar da karantin rejiminə uyğun olaraq tibbi təhlükəsizlik tələblərinə ciddi şəkildə riayət edilir. İtaliyada yeni qaydalara əsasən əgər futbolçular arasında 1 yoluxma halı qeydə alınsa, turnir yenidən yarımçıq dayandırıla bilər. Hazırda A seriyasında 26 turdan sonra “Yuventus” 63 xalla turnir cədvəlində birinci pillədə qərarlaşıb. “Latsio” liderdən 1 xal geri qalır. Rəqiblərindən 1 oyun az keçirən “İnter” isə 54 xalla ilk üçlüyü tamamlayır.

# “Yuventus” Neymarın transferi üçün mübarizəyə qoşulub



**İtaliyanın “Yuventus” klubu Fransanın “Paris Sen-Jermen” komandasının braziliyalı futbolçusu Neymarı transfer edə bilər.**

Bu haqda “Mundo Deportivo” xəbər yayıb. Turin təmsilçisi müqaviləyə Paulo Dibalanı daxil etməyə hazırdır. “Yuventus”un bu transferdə əsas rəqibi İspaniyanın “Barselona” klubudur. “Yuventus” Kataloniya təmsilçisini qabaqlamaq üçün əlverişli şərtlər hazırlayır. Qeyd olunur ki, “Yuventus” üçün bu transferdə yeganə çətinlik futbolçunun illik məvacibidir.

# "Atletiko"nun futbolçusu koronavirusa qalib gəldi



**“Atletiko”nun cinah müdafiəçisi Renan Lodi növbəti dəfə koronavirus testindən keçib. Lodinin analiz nəticəsi mənfi olub. 22 yaşlı futbolçu bu gündən məşqlərə qayıda bilər.** Lodi ”Atletiko”da koronavirusa yoluxan yeganə heyət üzvü idi. Braziliyalı oyunçu xəstəliyi simptomsuz keçirib. Bu həftə ərzində verdiyi hər iki testin nəticəsi neqativ olan Lodidə antitel aşkarlanıb.

La Liqanın 20 iyunda bərpa ediləcəyi gözlənilir. 27 turdan sonra ”Atletiko” turnir cədvəlinin 6-cı pilləsində qərarlaşıb.

# "Qalatasaray"ın futbolçusu aktrisa ilə evləndi

**“Qalatasaray”ın futbolçusu Şener Özbayraklı ailə həyatı qurub. 30 yaşlı müdafiəçi uzun müddətdir münasibəti olan aktrisa Şilan Makalla evlənib.** Cütlüyün nişan mərasimi ”Qalatasaray”ın Florya Mətin Oktay məşq bazasında baş tutub. İstanbul Bələdiyəsinin sədri Əkrəm İmamoğlunun kəsdiyi nikahda baş məşqçi Fatih Terim cütlüyün şahidi olub.

Qeyd edək ki, Şilan Makal qatıldığı bir moda proqramı ilə tanınıb. O, daha sonra ”Yeni Gəlin” serialı ilə məşhurlaşıb.

## HƏFTƏ REYTİNQ

### Həftənin “karantin pozucusu”



Azərbaycanın tanınmış müğənnilərindən olan Manaf Ağayev ölkədə tətbiq olunan xüsusi karantin rejimini pozdu. Buna ifaçının öz dostlarına şəxsi evində iftar verməsi səbəb olub.

Belə ki, iftar süfrəsində, azı, 12 nəfər iştirak edib ki, bu da Nazirlər Kabineti Yanında Operativ Qərargah tərəfindən açıqlanan karantin qaydalarına ziddir. Qeyd edək ki, Manaf Ağayevin iftara dəvət etdiyi şəxslər arasında müğənni Teymur Əmrah, Vasif Məhərrəmli ilə yanaşı, kikboksçu Eduard Məmmədov kimi tanınmışlar da var. Onların karantin rejimini bu şəkildə pozmaları sosial mediada birmənalı qarşılanmayıb.

Onu da əlavə edək ki, son günlərdə ölkədə koronavirus infeksiyasına yoluxmada artım müşahidə edilir. Bu səbəbdən, rəsmi qurumlar vətəndaşlara çağırış edərək həm sosial məsafə saxlamağı, həm də cəm halda bir yerə toplaşmamağı tələb edir.

Bundan başqa, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayından öncə bəyanat yayaraq, vətəndaşları karantin rejimi ilə əlaqədar olaraq, iftar süfrəsinin hər bir evdə yalnız ailə üzvlərinin iştirakı ilə açılmasına çağırmışdı.

### Həftənin “Elçibəysevəri”



“92-ci ildə Əbülfəz Elçibəy mənə Xalq artisti adı verməsəydi, elə Əməkdar adında da qalacaqdım. Hətta, bu halda da mən ehtiyacın köləsi olmazdım!..”. Bu sözləri xalq artisti Flora Kərimova sosial şəbəkədə yazdı. O, çətinliklə fəxri ad aldığını xatırladıb: “1989-cu ildə Bəxtiyar Vahabzadə, Bayram Bayramov, İsmayıl Şıxlı, Süleyman Ələsgərov, (5-ci şəxsin adını xatırlaya bilmədiyim üçün ruhu məni bağışlasın) Vəzirovun kabinetində mənə birbaşa Xalq artisti adının verilməsinə görə davaya çıxdılar. 48 yaşımda mənə zülmlə, zillətlə əməkdar adını ”qopartdılar” (sözümə görə üzr istəyirəm). Halbuki, o illərdə ayaqlar çoxdan baş olmuşdu. Mən bugünkü gün bütün estradanın borclu olduğu (Rəşid Behbudov, Mirzə Babeyev) sonuncu və yeganə qadın sənətkarıyam! 92-ci ildə Əbülfəz Elçibəy mənə Xalq artisti adı verməsəydi, elə Əməkdar adında da qalacaqdım. Hətta, bu halda da mən ehtiyacın köləsi olmazdım! Düşünürsüz, o qədər aciz və ağılsız oldum ki, Fəxri Xiyaban iddiasında olanlar kimi, o şöhrətə, imarətlərə gedən yolun qapısını tanımadım? Mən o insanam ki, qapılardan əyilib keçməmişəm. Məddahlığı şənimə ar bilmişəm! Malım-mülküm, bugünkü rifahım ailəmin, övladlarımın rifahıdır. Dilənib, satqınlıq və xəbərçilik edib kimisə gözdən salıb, özümə gündəm qazanmamışam. Bu həyatımı boşuna yaşamadım ki, kimsə məni haqq olan sözümə görə araşdırmadan linç eləsin”.

### Həftənin “anti-müsavatçısı”



“Cəmil Həsənli Müsavat Partiyasından da üzr istəməlidir!”. Bunu Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı sosial şəbəkə hesabında qeyd etdi. “Bunların iclaslarına, etdikləri müzakirələrə, ritorikalarına diqqət edin. Mən əlavə şərh etmək istəmirəm. Digərlərinin işi-gücü Müsavata qarşı şərböhtan danışmaq və yaymaq olduğu üçün, faktiki Müsavata qarşı trolluqla məşğul olduqlarından onlarla işim yoxdur. Bir daha Cəmil Həsənlidən Müsavat Partiyasından üzr istəməsini tələb edirəm!” - deyə, Müsavat Partiyası başqanının müavini əlavə edib.

### Həftənin “karantin pozan tibb müəssisəsi”



Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda karantin rejimi qaydalarını pozaraq keçirilən tədbirlə əlaqədar aparılan araşdırma yekunlaşdı.

Bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mətbuat xidmətinin rəhbəri Rəvanə Əliyeva məlumat verdi. O bildirib ki, məsələ ilə bağlı institutun direktoruna xəbərdarlıq edilib: “Həkimlər arasında kütləvi tədbirin keçirilməsi barədə məlumat əsasında araşdırma aparıldı. Nəticədə institutun direktoru Həqiqət Qədirovadan izahat alınıb. Ona ciddi xəbərdarlıq edilib. Bir daha belə nöqsanlara yol verilməməsi tapşırılıb”.

### Həftənin “koronavirusşünası”



“Yoluxma riski hər yerdə var. Artıq evi tərk edən kimi onunla qarşılaşırsan. Bu səbəbdən, koronavirus barədə çox düşünmək lazım deyil. Özünü heç yerə getməməyə məcbur etmək mümkün deyil”.

Bu fikirləri İspaniya ”Barselona”sının futbolçusu Lionel Messi ”Sport.es” nəşrinə açıqlamasında dedi. 33 yaşlı hücumçu qaydalara əməl etməyin və maksimum ehtiyat tədbirlər görməyin gərəkliyini anladıqlarını bildirib. Argentinalı forvard yarışların bərpa olunmasını gözlədiyini söyləyib: ”Şəxsən mən yarışların bərpasını səbirsizliklə gözləyirəm. Hər şeyin qəribə alınacağını bilirik. Çünki tribunlarda azarkeşlər olmayacaq. Bizi ailələlərimizdən ayırmalarını istəmirik. Ancaq bunun necə görünəcəyinə baxmaq lazımdır”. Qeyd edək ki, İspaniya La Liqası martın 12-də koronavirus pandemiyasına görə dayandırılıb.

### Həftənin “tənqid hədəfi”



Türkiyənin İstiqlal marşının yazarı Mehmet Akif Ersoyun evinin gözəllik salonu kimi istifadəyə verilməsi qalmaqala səbəb oldu. 2011-ci ildə Sezen Aksu tərəfindən 350 min lirəyə alınan ev 500 min lirəyə təmir olunub. Daha sonra Safiye Turan adlı biznes-lediyə gözəllik mərkəzi kimi kirayə verilib. Sözügedən hadisə sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Sezen Aksu bu hərəkətinə görə tərəfindən tənqid olunub.

*Sultan Laçın*

## ELAN

**Nəcəfov Sərdar Əvəz oğlunun adına olan Bərdə şəhəri Cəfər Cabbarlı küçəsi, 79 saylı ünvanda yerləşən fərdi yaşayış evinə 23.01.1991-ci ildə verilmiş 1961 saylı qeydiyyat vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.**